QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 201 (5673) **24 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan ilə Rusiya dost ölkələrdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib*



Səh 2

## Xocalı soyqırımı barədə Rusiya parlamentarisinin bəyanatı İordaniyanın nüfuzlu nəşrində dərc olunub

Bax 2

*Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyevin Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən yayılmış bəyanatı İordaniyanın nüfuzlu "Orobanyus" nəşrində dərc edilib. AZƏRTAC xəbər verir ki, "Dmitri Savelyev: Xocalıda törədilmiş hadisə Azərbaycan xalqına qarşı soyqırımıdır" sərlövhəli materialda Xocalıda Azərbaycana qarşı törədilmiş soyqırımından bəhs olunur...*

## Azərbaycanın üstünlüyü yeni dövrün hesabatında öz əksini tapır

Bax 11

*Dünya İqtisadi Forumunun tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim etdiyi Qlobal Rəqabətlilik Hesabatına yeni indikatorlar daxil edilib və 74 faizi, yəni 84 indiqatoru çıxarılaraq, 68 yeni indikator daxil edilən hazırkı hesabat əvvəlki hesabatdan əhəmiyyətli dərəcədə fərqlənir ki, 98 indikatordan ibarət bu hesabatın 70 faizi tamamilə yenidir. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil "4.0" kimi ictimaiyyətə təqdim edib...*

## Nazirlər Kabinetinin rəsmi internet saytı rus dilində də fəaliyyətə başlayıb

Bax 9

*Son vaxtlar ölkədə tətbiq olunan Elektron hökumət konsepsiyasının tələblərinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının rəsmi internet saytında (www.cabmin.gov.az) yeni struktur dəyişiklikləri aparılıb. Sayt daha da təkmilləşdirilərək, yeni funksional bölmələr əlavə edilməklə zənginləşdirilib və onun ən son internet texnologiyaları əsasında mükəmməl dizaynı hazırlanıb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki...*


**Tarixi nailiyyət, diplomatik qələbə**



6

**Bakının Nərimanov rayonunda 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub**



4

**Bakıda "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub**



4

**YAP-ın Sədr müavini Əli Əhmədov Tacikistanın ölkəmizdəki səfiri ilə görüşüb**



5

**Pakistan Prezidenti Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisini qəbul edib**



5

**"Ermənistanın Xocalı, Dağlıq Qarabağla bağlı yalanları artıq puç olmağa başlayır"**



5

12

**Ərdoğan: "Camal Kaşıkçı planlaşdırılmış cinayətin qurbanı olub"**



13

**İonnisyan: "Paşinyan da sabotaja rəvac verib"**



16

**Ronaldonun 2 milyon avroluq saatı...**



# "Azərbaycan ilə Rusiya dost ölkələrdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Vladimir Kolokoltsevin Azərbaycana səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirərək, iki ölkənin Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirdi. Dövlətimizin başçısı bu baxımdan ölkələrimizin Daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq, sentyabr ayında özünün Rusiya Federasiyasına rəsmi səfərini, sonra isə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərini ölkələrimiz arasında mövcud olan qarşılıqlı fəaliyyətin xarakterinin və etimadın əyani nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu səfərlər zamanı digər məsələlərlə yanaşı, hüquq-mühafizə orqanları arasında əlaqələr də müzakirə edilib və bu sahədə də əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev qəbula görə minnətdarlığını bildirdi. O qeyd etdi ki, bu ilin iyul ayında MDB ölkələrinin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edən zaman Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən söylənilən xoş sözlər tədbir iştirakçılarında böyük məmnunluq hissi doğurub.

Ölkələrimizin ikitərəfli münasibətlərinə toxunan Vladimir Kolokoltsev bildirib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Estoniya əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub



***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Estoniya parlamentinin vitse-spikeri Kalle Laanet ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Elmar Məmmədyarov Azərbaycan ilə Estoniya arasındakı münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Elmar Məmmədyarov, həmçinin Azərbaycan ilə Estoniya arasında informasiya və kommunikasiya texnologiyaları, elektron hökumət sahələrində uğurlu əməkdaşlığın mövcud olduğunu qeyd edib. Avropa İttifaqı-Azərbaycan münasibətlərinə toxunan nazir ölkəmizin Şərq Tərəfdaşlığı çərçivəsində iştirakı, əlaqələrin hüquqi əsasını təşkil edəcək yeni, strateji əhəmiyyətli saziş üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verib.

Kalle Laanet, öz növbəsində, Estoniyanın Azərbaycanla əməkdaşlığa daim maraq göstərdiyini, ölkələrimiz arasında informasiya-kommunikasiya texnologiyaları, o cümlədən nəqliyyat sahələrində əməkdaşlıq üçün geniş potensialın olduğunu qeyd edib.

Görüşdə Azərbaycan-Estoniya münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib, tərəflər arasında siyasi dialoqun davamlı şəkildə aparılmasının və yüksək səviyyəli mütəmadi qarşılıqlı səfərlərin, görüşlərin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

## Xocalı soyqırımı barədə Rusiya parlamentarisinin bəyanatı İordaniyanın nüfuzlu nəşrində dərc olunub

***Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyevin Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən yayılmış bəyanatı İordaniyanın nüfuzlu "Orobanyus" nəşrində dərc edilib.***


ديمتري سافيليف: الأعمال المرتكبة في خوجالي إبادة جماعية ضد الشعب الأذربيجاني

AZƏRTAC xəbər verir ki, "Dmitri Savelyev: Xocalıda törədilmiş hadisə Azərbaycan xalqına qarşı soyqırımıdır" sərlövhəli materialda Xocalıda Azərbaycana qarşı törədilmiş soyqırımından bəhs olunur.

Rusiyalı parlamentari qeyd edir ki, 26 il bundan əvvəl Xocalıda dəhşətli faciə törədilib, dinc sakinlərə hücum edilib, heç bir təqsiri olmayan 613 nəfər qətlə yetirilib. RF Dövlət Dumasının deputatı Dmitri Savelyev deyib: "Bu, soyqırımıdır. Bu cinayəti törədənlər isə hələ də cəzalandırılmayıb. Biz hamımız birlikdə Xocalı soyqırımı haqqında həqiqəti dünyaya çatdırmağa çalışmalıyıq ki, bu faciənin təqsirkarları layiqli cəzalarını alsınlar".

# “Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir”

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İmam Hüseyn məscidinin bərpadan sonra açılışında iştirak edib*

***Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib. Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda, rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir. Bu sahədə Heydər Əliyev Fondunun da gördüyü işlər böyük əhəmiyyətə malikdir.***









AZƏRTAC xəbər verir ki, məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verdi. Bildirildi ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.

Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya Müqəddəs Qurani-Kərim hədiyyə etdi. Dövlət-din münasibətlərinin Azərbaycan modeli bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Azərbaycanın bu istiqamətdəki siyasəti artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiq, onları qoruyan, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyən bir ölkə kimi tanınır.



# Bakının Nərimanov rayonunda 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub

*Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib*

**Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.**




Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirdi ki, 11 saylı xüsusi təhsil məktəbi 1937-ci ildən fəaliyyət göstərir. Bu təhsil ocağının köhnə binası 1897-ci ildə inşa edilmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan monitorinq nəticəsində məktəb binasının təhsilə tam yararsız olduğu aşkar edilmiş və Nərimanov rayonunda məktəb üçün yeni binanın inşasına qərar verilmişdi.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsdi və bu təhsil ocağında yaradılan şəraitlə tanış oldu. Qeyd edildi ki, təhsil müəssisəsinin binasının ümumi sahəsi 4 min kvadratmetrdən çoxdur. Burada 21 sinif otağı, psixoloq, defektoloq, həkim otaqları, idman və akt zalları, yeməkxana var. Eyni zamanda, burada uşaqların istifadəsi üçün kitabxana yaradılıb.

Məktəbin üçmərtəbəli binası 250 şagird yerlikdir. Hazırda 651 nəfər evdə, 137 şagird isə məktəbdə təhsil alır. Məktəbdə 289 müəllim çalışır və onlar autizm, Daun sindromlu, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Ümumtəhsil proqramını mənimsəyə bilməyən şagirdlər də il ərzində aşkarlanaraq bu məktəbə yönləndirilir. Onillik məktəbin tədris planına defektoloq saatları daxil edilib. Eyni zamanda, xüsusi uşaqlar üçün psixoloq saatları ayrılıb. Texnologiya dərslərində isə uşaqların bacarıqları aşkar olunur. Bir sözlə, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil alması, onların təlim-tərbiyəsi ilə hərtərəfli məşğul olmaq üçün bütün imkanlar mövcuddur. Bütün bunlar isə xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, bu qəbildən olanların təhsil problemlərinin həlli istiqamətində son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə əhəmiyyətli addımların atılmasından irəli gəlir. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, Fond da bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Bu layihənin icrası aydın şəkildə göstərir ki, humanizm, insani dəyərlərə hörmət, dinindən, dilindən, cinsindən, yaşından asılı olmayaraq hər kəsə diqqət göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində əsas prinsiplərdən biridir.

Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zonası yaradılıb, istirahət köşkləri qurulub.

11 saylı xüsusi təhsil məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu təhsil ocağına fəaliyyətində uğurlar arzuladı.

# Bakıda "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub

***Oktyabrın 22-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Baku Crystall Hall"da "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, digər rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.***







Sərginin keçirilməsində məqsəd gənclərin ekoloji sahəyə marağını artırmaq, onları bu sahədə maarifləndirmək, eyni zamanda, yaradıcılıq potensiallarını dəstəkləmək və sosial təşəbbüskarlığı stimullaşdırmaqdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və gənclər və idman naziri Azad Rəhimov sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Sərgidə 14-29 yaşlı 200-dək gəncin dəzgah rəngkarlığı, kvillinq, xəttatlıq, keramika, rəngkarlıq, ebru sənəti, qrafika, qravüra, landşaft dizaynı, batika, vitraj, qravüra üslubları üzrə ekoloji mövzuda çəkdikləri rəsm əsərləri nümayiş etdirilib. Bununla yanaşı, gənclərin ekoloji mövzuda hazırladıqları müxtəlif əsərlər də sərgilənib.

Tədbirdə ustad dərsləri keçirilib, gənclərin iştirakı ilə eko-tamaşa, səhnəciklər, viktorinalar, sağlam həyat tərzinin təbliği məqsədilə idman yarışları təşkil olunub, adı Azərbaycanın "Qırmızı kitabı"na düşən heyvanlar və nadir ağaclar nümayiş etdirilib. Sonda sərginin qalibləri mükafatlandırılıb.

Qeyd edək ki, sərgi Prezident İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın 5.2.3-cü bəndini (gənclərin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirmək) rəhbər tutaraq və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.6.5-ci (gənclər arasında ətraf mühit və mənfi ekoloji tendensiyaların sağlamlığa zərərli təsiri ilə bağlı maarifləndirmə işlərinin aparılması) bəndinin icrasını təmin etmək məqsədilə keçirilib.

## Pakistan Prezidenti Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisini qəbul edib



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın dəvəti ilə oktyabrın 22-dən bu ölkədə səfərdədir.



AZƏRTAC xəbər verir ki, oktyabrın 24-dək davam edəcək səfər çərçivəsində general-polkovnik Elçin Quliyev Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi tərəfindən qəbul edilib. Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq əlaqələrinin mövcudluğu, Pakistanın 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini, eləcə də Xocalı soyqırımını tanıyan ilk ölkələrdən biri olduğu vurğulanıb. Həmçinin 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulduğu, ölkə rəhbərləri və hökumət nümayəndələri səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirildiyi, Pakistanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində daim Azərbaycanın mövqeyini dəstəklədiyi qeyd edilib.



General-polkovnik Elçin Quliyev Azərbaycanın dövlət sərhədlərində mövcud əməliyyat şəraiti haqqında Pakistan Prezidentinə məlumat verib. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, Azərbaycan-İran sərhədinin 132, Azərbaycan-Ermənistan sərhədinin isə 733 kilometrlik hissəsinin nəzarətsiz qaldığı qeyd edilib. Əlavə olaraq, Dövlət Sərhəd Xidmətinin fəaliyyəti, həyata keçirilən islahatlar, maddi-texniki bazanın inkişafı üzrə görülmüş işlər və əldə olunan nailiyyətlər barədə də ətraflı məlumat verilib.

General-polkovnik Elçin Quliyevin Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayat ilə görüşündə ölkələrimiz arasında dostluq əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edilib. Bundan başqa, sərhəd təhlükəsizliyi sahəsində əlaqələrin qurulması və inkişaf etdirilməsi, təcrübə mübadiləsinin həyata keçirilməsi, tərəflərin müvafiq heyətinin xüsusi təlim və kurslarda iştirakı və s. məsələlər müzakirə olunub. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Pakistan İslam Respublikasının Quru Qoşunlarının Komandanı, general Qamar Cavad Bacva, Hərbi Dəniz Qüvvələrinin Komandanı admiral Zəfər Mahmud Abbasi və Pakistan İslam Respublikasının 11-ci ordu korpusunun komandiri, general-leytenant Nazir Əhməd Batla da görüşlər keçirib. Azərbaycan nümayəndə heyətinin Pakistana səfəri davam edir.

## "Ermənistanın Xocalı, Dağlıq Qarabağla bağlı yalanları artıq puç olmağa başlayır"



Artıq Rusiya ictimaiyyətində Azərbaycan həqiqətlərini səsləndirən ziyalıların çoxaldığını görürük. Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyevlə yanaşı, xeyli sayda ziyalılar var ki, onlar həqiqəti bildirir, Ermənistanın işğalçılıq siyasətindən məlumatlı olmaqla yanaşı bu siyasəti pisləməkdən çəkinmirlər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, ziyalılar tərəfindən həqiqətlərin bildirilməsi ilk növbədə Azərbaycanın nüfuzunun artdığını göstərir: "Rusiya ictimaiyyətində Azərbaycan, konkret olaraq Dağlıq Qarabağ məsələsi ilə bağlı obyektiv informasiyanın çoxalması Prezident İlham Əliyevin siyasi nüfuzunun göstəricisidir. Xarici ölkələrdə, xüsusilə də qonşu Rusiyada ölkəmizin inkişafını görür, artıq həqiqətlərin söylənməsi onlar üçün şərəf məsələsinə çevrilib".

Rusiyalı deputatın Azərbaycan həqiqətləri ilə bağlı səsləndirdiyi fikirlərini siyasi cəsarət adlandıran A.Mirzəzadə vurğulayıb ki, bu, eyni zamanda qonşu dövlətin ictimaiyyətində Azərbaycanı sevən, haqq işini müdafiə edən böyük bir ziyalı ordusunun yetişməsindən xəbər verir: " Ermənistanın rəsmi təbliğat maşının Xocalı, Dağlıq Qarabağla bağlı yalanları artıq puç olmağa başlayır. Artıq ermənilərin özləri yalanlara inanmırlar. Bu baxımdan düşünürəm ki, bu cür faktlar bir daha göstərir ki, ölkəmizin həqiqətlərinin bütün dünya tərəfindən tanınması prosesi çox sürətlə gedir. Belə bəyanatları biz vaxtaşırı eşidəcəyik. Eyni zamanda bir deputat kimi, rusiyalı həmkarıma obyektivliyinə cəsarətinə, mövqeyinə görə, öz təşəkkürümü bildirirəm".

## YAP-ın Sədr müavini Əli Əhmədov Tacikistanın ölkəmizdəki səfiri ilə görüşüb



Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov oktyabrın 23-də Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyev ilə partiyanın mənzil qərargahında görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Sədrinin müavini Əli Əhmədov Azərbaycan ilə Tacikistan arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu nəzərə çatdırıb.

## Mübariz Qurbanlı Göyçayda vətəndaşları qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər. SİA xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 23-də Göyçayda Ucar, Zərdab, Kürdəmir və Göyçay rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə ümummilli lider Heydər Əliyevin rayonda ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Göyçay rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərə bağlı müraciət ediblər. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

## "Dmitri Savelyevin Xocalı soyqırımı ilə bağlı bəyanatı Azərbaycanın haqq-ədalət çağırışlarının başlıca nəticələrindəndir"



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycanın haqlı mövqeyi bir sıra beynəlxalq mərkəzlər, eləcə də ayrı-ayrılıqda nüfuzlu şəxslər - siyasətçilər, ictimaiyyət nümayəndələri tərəfindən dəstəklənir. Bu, belə nəticəyə gəlməyə əsas verir ki, həqiqət, haqq-ədalət bütün mənalarda öndədir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Səs" Media Qrupun rəhbəri Bəhruz Quliyev Türkiyənin Kayseri şəhərində Xocalı parkının açılışında Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyevin erməni işğalını pisləyən bəyanatını şərh edərkən deyib.

B.Quliyev qərəzlilik tendensiyasının tədricən aradan qalxdığını qeyd edərək bildirib ki, Azərbaycan xalqı bəzən münaqişə ilə bağlı qeyri-obyektiv fikirlərin də şahidi olur, ayrı-ayrı siyasətçilər, xarici qeyri-hökumət təşkilatlarının nümayəndələri işğal olunmuş Dağlıq Qarabağa qanunsuz səfərlər edirlər. Lakin Azərbaycan hökuməti tərəfindən onlara kəskin etirazlar bildirilir, xəbərdarlıqlar edilir. Nəticədə adları qara siyahıya salınmış qurumlar və şəxslər daha öncə atdıqları addımlarının doğru olmadığını başa düşür, Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərdiklərini bəyan edir, peşmançılıqlarını bildirirlər.

"Savelyevin Kayserideki bəyanatı bir daha sübut edir ki, rəsmi Bakının ədalətli mövqeyi Rusiyanın hakim dairələri tərəfindən dəstəklənir. Rusiyanın siyasi müstəvisində Azərbaycanın mövqeyini haqlı sayan və müdafiə edən çox ciddi siyasətçilər, dövlət adamları var. Məsələn, biz Rusiya Prezidenti yanında Vətəndaş Cəmiyyətinin İnkişafı və İnsan Hüquqları üzrə Şuranın üzvü, eyni zamanda, Rusiyanın İctimai Palatasının üzvü olmuş Maksim Şevçenkonun da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatını xatırlaya bilərik. Bu siyasi xadim də bildirib ki, ermənilər öz işğalçılıq siyasəti ilə regionun təhlükəsizliyinə zərbə vururlar. Rusiyanın ictimai-siyasi xadiminin Dağlıq Qarabağın Azərbaycanın tarixi torpağı olması faktını birmənalı şəkildə ifadə etməsi və Ermənistanı düşmən dövlət kimi göstərməsi işğalçı ölkənin əsl mahiyyətini açıb ortaya qoymuş oldu. Prezident Vladimir Putinə yaxın sayılan və Rusiya ictimai rəyinə təsiri olan ekspert və politoloqların - Aleksandr Duqinin, Maksim Şevçenkonun, İqor Korotçenkonun, həmçinin Duma deputatlarının, Azərbaycana rəğbəti olan rusiyalı ictimai-siyasi xadimlərin Cəbrayılın erməni işğalından azad olunmuş Cocuq Mərcanlı kəndinə səfərlərini və orada Dağlıq Qarabağ mövzusunda səsləndirdikləri fikirləri də xatırlaya bilərik. Bütün bunlar, eləcə də Savelyevin Xocalı soyqırımı, Dağlıq Qarabağın işğalı və s. bu kimi məsələlərlə bağlı önəmli bəyanatlar səsləndirməsi Azərbaycan rəhbərliyinin uğurlu siyasətinin tərkib hissəsidir. Bu məsələlərdə ölkəmizin regiondakı mövqeyinin gücləndirilməsinin də təsirlərini qeyd etməliyik", - deyə o bildirib. Siyasi ekspert qeyd edib ki, Kayseridə açılışı olan Xocalı parkındakı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önündə çıxış edən Savelyevin Xocalı faciəsini vəhşilik adlandırması və bütün dünya tərəfindən tanınmalı olduğunu bəyan etməsi reallıqları bir daha önə çıxarmış oldu. Bu, Azərbaycanın haqq-ədalət çağırışlarının başlıca nəticələrindəndir".



# Tarixi nailiyyət, diplomatik qələbə

## *İlham Əliyev: "Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizin əldə etdiyi ən böyük uğurlardan biridir"*

***24 oktyabr 2011-ci il - Azərbaycanın beynəlxalq diplomatik uğurları sırasına daxil olan növbəti əlamətdar hadisə. Oktyabrın 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, respublikamız 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Təhlükəsizlik Şurasında təmsil edəcək yeni üzv seçildi. Azərbaycanın BMT TŞ-nin üzvü seçilməsi həm ölkəmizdə, həm də xarici dövlətlərdə, çox haqlı olaraq, respublikamızın beynəlxalq müstəvidə qazandığı son dərəcə böyük siyasi və diplomatik qələbə kimi qəbul edilir. Bu uğur həm də Azərbaycanın öz milli maraqlarının beynəlxalq səviyyədə müdafiəsi üçün daha geniş imkanlar yaradır.***

Prezident İlham Əliyevin bununla əlaqədar verdiyi bəyanatda çox aydın şəkildə ifadə edilib ki, bu, bizim üçün tarixi əhəmiyyət kəsb edən bir hadisədir. BMT Baş Assambleyasında keçirilən səsvermədə quruma 193 üzv dövlətdən 155-i Azərbaycanın TŞ-yə üzv olmasına səs verdi. Bu göstəricidən sonra Şərqi Avropa qrupu üzrə Azərbaycanın əsas rəqibi olan Sloveniya öz namizədliyini geri götürüb. Səsvermə keçirildikdən sonra iclasın sədri Azərbaycanın Təhlükəsizlik Şurasına qeyri-daimi üzvün seçildiyi bildirilib.

Beləliklə də, Azərbaycan 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Göründüyü kimi, 20 illik müstəqillik dövrünü yaşayan gənc dövlətin beynəlxalq miqyasda, dünyanın ən aparıcı beynəlxalq təşkilatında bu qədər səs toplaması, doğrudan da, mühüm bir məsələdir. Sözsüz ki, ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması, Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Bu uğurun müstəqilliyin bərpasının 20-ci ildönümündə əldə edilməsi təsadüfi deyildir. Belə ki, Azərbaycan, ötən 20 il ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilibdir.

Azərbaycan Prezidenti İlham Əliyev 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir və siyasətimizin təntənəsidir".

Onu da vurğulamaq lazımdır ki, Azərbaycan dünyanın aparıcı dövlətləri ilə, xüsusən də, ABŞ-la strateji tərəfdaşdır. Ölkələrimiz arasında münasibətlər daim yüksələn xətt üzrə inkişaf etdirilir. Prezident İlham Əliyevin son illər ərzində BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü olan ölkələrə səfərlər etməsi də Azərbaycanın dünya arenasındakı yüksək mövqelərindən xəbər verir. Azərbaycan həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurlu xarici siyasət yürüdür. Bu uğurlar isə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin nəticəsidir. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv seçilməyimiz Azərbaycanın gündən-günə artan nüfuzunun göstəricisidir.

Təhlükəsizlik Şurasında üzvlüyü dövründə Azərbaycan dövlətimizin milli maraqlarının qlobal səviyyədə irəli aparılması istiqamətində fəal səylər göstərib. Ölkəmizin üzləşdiyi ən böyük problem olan Ermənistanın Azərbaycana qarşı təcavüzünün müxtəlif aspektləri Şuranın müvafiq iclaslarında, mütəmadi olaraq, diqqətə çatdırılıb. Bundan əlavə, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət, həmçinin, münaqişələr zamanı müharibə və insanlığa qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyi, ardıcıl olaraq, qaldırılırdı və müvafiq müddəalar Şuranın qəbul etdiyi sənədlərdə əks etdirilib. Afrika dövlətləri ilə ikitərəfli münasibətlərin inkişafına böyük önəm verən Azərbaycan qitənin üzləşdiyi müxtəlif problemlərin həllinə Təhlükəsizlik Şurasında üzvlüyü dövründə də fəal töhfə verməyə çalışıb.

Çünki Azərbaycan Cənubi Qafqazda sülhə, təhlükəsizliyə, tolerantlığa, iqtisadi inkişafa, millətlərarası və sivilizasiyalararası münasibətlərə, dialoqa əməli töhfələr verən ölkədir. Respublikamız müxtəlif sivilizasiyaların, Şərqlə Qərbin qovşağında yerləşir. Ölkəmiz Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən unikal geostrateji məkandır. Ölkəmizin BMT sənədlərində nəzərdə tutulan məsələlərə verdiyi böyük töhfələr, həmçinin, Prezident Administrasiyası, Heydər Əliyev Fondu, Xarici İşlər Nazirliyi, Yeni Azərbaycan Partiyası xətti ilə respublikamızda keçirilən çoxsaylı beynəlxalq siyasi, iqtisadi, mədəni və humanitar tədbirlər, idman yarışları Azərbaycanın dünyada sülhə, əmin-amanlığa, sivilizasiyalararası dialoqa, dövlətlərarası münasibətlərə, tolerantlığa, millətlərarası əlaqələrə çox böyük töhfələr verdiyini göstərən amillərdir. Azərbaycan multikulturalizmə və tolerantlığa çox böyük diqqət yetirən ölkədir. Digər tərəfdən, Azərbaycan artıq dünya iqtisadi inkişafına, o cümlədən, beynəlxalq proseslərə təsir göstərən dövlətə çevrilib. Məhz bu göstəricilərin hər biri Azərbaycanın nüfuzunu artıran çox ciddi və mühüm meyarlardır. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin dünya siyasətçiləri və liderləri arasında şəxsi nüfuzu, dövlət başçısı kimi ölkələrarası münasibətlərə verdiyi töhfə, təbii ki, respublikamızın beynəlxalq nüfuzunun artmasında öz rolunu oynamaqdadır. Bununla da, Azərbaycan BMT TŞ-nin üzvlüyünə namizədliyini irəli sürdükdə, nəticə etibarilə uğura imza ata bildi.

Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi altında, Azərbaycanda qısa dövr ərzində, mühüm iqtisadi və sosial layihələrin həyata keçirilməsi, əhalinin rifah halının yüksəldilməsi, yoxsulluğun və işsizliyin aradan qaldırılması sahəsində inqilabi nəticələr əldə edilibdir. Həmçinin, Azərbaycan həm də beynəlxalq səviyyədə etibarlı tərəfdaşdır, dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr quraraq, bunu dövlətlərarası sivil münasibətlər müstəvisində daim inkişaf etdirir. Ərazisinin Ermənistan tərəfindən işğal olunmasına baxmayaraq, Azərbaycan daim sülh tərəfdarı kimi çıxış etmiş və böyük iqtisadi və hərbi potensialına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə sadiqliyini nümayiş etdirir. Azərbaycan həm də regional təhlükəsizliyə mühüm töhfə verir, bölgənin və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ciddi faktora çevrilibdir. Bütün bunlar, ölkəmizin TŞ-yə seçilməsini şərtləndirən əsas faktorlardandır.

Beləliklə, BMT TŞ-yə üzv seçilmək Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli və uğurlu diplomatiya siyasətinin məntiqi nəticəsi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz dövlətinə və rəhbərinə sədaqətinin məntiqi nəticəsidir.

**R.HÜSEYNOVA**

**2003-cü ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş vüsət alan yenidənqurma tədbirləri meliorasiya və irriqasiya sahəsində də özünü göstərməkdədir. Son 15 ildə bu sahədə də böyük işlər görülüb, uğurlar əldə edilib. Bu illər ərzində ölkəmizdə Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib, 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilib ki, bu da nəticə etibarı ilə fermerlərə, sahibkarlara əlverişli şərait yaratmaqla yanaşı, kənd təsərrüfatının inkişafına da öz təsirlərini göstərib. Statistikaya əsasən, meliorasiya və su təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğı nəticəsində bu sahəyə ayrılan investisiya vəsaitinin həcmi 20 dəfə, istismar xərclərinə ayrılan vəsait 6 dəfəyə qədər, sistem üzrə işçilərin əməkhaqqı isə 7,4 dəfə artıb. Bu istiqamətdə həyata keçirilən növbəti uğurlu layihə ötən gün İmişlidə Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi ilə reallaşdı.**



# Bu layihə bazarlarda qiymətləri əhalinin xeyrinə tənzimləyəcək

## “İstifadə olunmayan torpaqlarla bağlı problem həllini tapacaq”

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev söyləyib ki, kanalın istifadəyə verilməsi minlərlə hektar torpağın su ilə təmin olunması deməkdir: “Bu, kanal boyunca yerləşən zonalarda kənd təsərrüfatı sahəsinin inkişafına geniş imkanlar açacaq. Layihə həmçinin şoranlaşmış torpaqların yuyulması, dövriyyədən çıxan torpaqların yenidən dövriyyəyə qaytarmaq üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, kanalların açılması, bərpası və onların saxlanması 10 milyonlarla vəsait hesabına başa gəlir.



Ölkəmizin iqtisadi vəziyyəti gücləndikcə, bu cür layihələrin daha tez-tez reallaşdığının şahidi oluruq. Bu cür layihələr həm bölgənin ümumilikdə inkişafı, həm də rayonların sosial səviyyəsinin mərkəzi şəhərlərin səviyyəsinə qaldırmağa imkan yaradır. Ölkəmizdə istifadə olunmayan torpaqlar var ki, onların meliorasiyaya ehtiyacı var. Sözügedən kanal bu problemin də qarşısının alınmasına kömək edəcək”.

## Bundan kimlər yararlanacaq?

Deputat söyləyib ki, İmişlidə reallaşan layihədən ilk növbədə fermerlər yararlanacaq: “Bu, emal sahələri üçün xammal olmaqla yanaşı, orada bu sahə üzrə fəaliyyət göstərən müəssisələr, daha sonra isə istehlakçılar üçün faydalı olacaq. Kanalın gətirəcəyi əsas faydalardan biri məhsul bolluğu ilə bağlı olacaq”.

## “Layihə yeni iş yerlərinin açılmasına səbəb olacaq”

Araz çayının yeni qol-kanalının açılmasının yeni iş yerlərinin açılmasına səbəb olacağını deyən deputat söyləyib ki, nədənsə yeni iş yerlərinin açılması deyəndə insanlar dövlət tərəfindən hər hansı müəssisənin açılacağını düşünür: “Artıq ölkəmizdə əsas inkişaf istiqaməti qeyri-neft sektoru ilə bağlıdır. Bu sektorda kənd-təsərrüfatı sahəsinin inkişafının mühüm rolu var.

İstər texniki bitkilər, istər meyvə-tərəvəz, istərsə də digər məhsulların əkilməsi bizim üçün hava su kimi vacibdir. Çünki bunun sayəsində həm ölkəmizin ərzaq təhlükəsizliyini, həm də digər ölkələrə ixracımızı artırmaqla valyuta ehtiyatımızı artırmış oluruq. Bir sahəyə investisiyanın qoyulması, digər sahələrə də yatırımların olacağından xəbər verir. Bu, nəticə etibarı ilə yeni iş yerlərinin açılmasına səbəb olacaq”.

## “Kəndlinin kənddə qalıb işləməsi üçün hər cür şərait yaradılır”

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədr müavini, deputat Musa Quliyev: “İmişlidə Araz çayının yeni qol-kanalının açılması, kənd təsərrüfatı, aqrar sektorunun güclənməsi, meliorasiya işlərinin yaxşılaşması, suvarılan ərazilərinin miqyasının artırılması ölkəmizin inkişafının göstəricisidir. Bu kanal vasitəsilə artıq Azərbaycanda əvvəllər suvarılmayan, az məhsulu olan lakin istifadəyə yararlı olan hektarlarla torpaqların daha bol-bərəkətli, nemət verən torpaqlara çevriləcək.



Bu torpaqlarda yüzlərlə insan çalışacaq. Kəndlinin kənddə qalıb işləməsi üçün artıq dövlət tərəfindən hər cür şərait yaradılır.

Ölkəmizdə kəndli torpaq, su, ting, toxum, texnika ilə təmin olunur. Belə olan halda, kəndliyə bircə işləmək qalır. Bu mənada yeni suvarma kanalının açılması regionların sosial iqtisadi inkişafı ilə bağlı keçirilən proqramların tərkib hissəsidir və çox uğurlu nəticələrdən belədir”.

## “Məşğulluqla bağlı problemlər aradan qalxacaq”

M.Quliyev söyləyib ki, kanalın çəkilməsi yeni əkin sahələrinin, bağların salınmasına səbəb olacaq ki, bu da nəticə etibarı ilə kənddə işsiz şəxslərin məşğulluq problemlərinin aradan qaldırılmasına yardım edəcək: “Bunun sayəsində minlərlə insanın həyat səviyyəsi yüksələcək. Kanaldan təkcə İmişli deyil, digər rayonlar da istifadə edəcək. İstənilən şəxsin arzu etdiyi yerdə torpaq icarəyə götürmək imkanının olduğunu nəzərə alsaq, kanal digər rayonlarda yaşayan kənd təsərrüfatı ilə məşğul olanların da fəaliyyətinə müsbət təsir göstərəcək”.

## “Yay fəslində su ilə bağlı problemlərin qarşısı alınacaq”

AMEA-nın Elmi İnnovasiyalar Mərkəzinin Tədris-təhsil mərkəzinin direktoru, iqtisad elmləri doktoru, professor Tərbiz Əliyev söyləyib ki, su olan yerdə hər zaman inkişaf var: “Kanalın açılması məhsuldarlığı artıracaq, məhsuldarlıq növbəlilik məsələsinin həll edilməsi, eləcə də əhalinin gündəlik su tələbatı ilə bağlı problemləri həll olunacaq.



İndiyədək həmin ərazidə yerləşən ətraf rayonların çoxu, xüsusilə də fermerlər yay fəslində sudan əziyyət çəkirdilər. Bunun qarşısının alınması istiqamətində mühüm layihə həyata keçirildi. Lakin burada maraqlı məqam layihənin reallaşmasında ən müasir texnikalardan istifadə edilməsidir. Burada ən müasir suvarma sistemləri üçün vacib olan tikinti materialları, kanal üçün zəruri olan çöküntü saxlamayan drenaj hisələrindən istifadə olunub ki, bu da suyun itkisiz gedərək, son məhsula çatmasına müsbət səbəb olur “.

## “Bazarlarda qiymətlər əhalinin xeyrinə tənzimlənəcək”

Professor qeyd edib ki, layihənin iqtisadi əhəmiyyəti ilə yanaşı sosial əhəmiyyəti də var: “ Belə ki, insanlar sudan istifadə zamanı qənaət sisteminə riayət etməlidir. Quraqlıqda suya azaldığı təqdirdə, Araz çayının yeni qol-kanalında da suyun azalacağı təbiidir.

Uzun müddətli yağışlar nəticəsində Araz daşdıqda orada da suyun miqdarı çoxalacaq.

Bunun tənzimləmək üçün xüsusi qurğular tikilib ki, bunun özü də müsbətdir.Amma burada vətəndaşlar da məsuliyyətli olmalıdırlar.Bu gün torpaqlarımızın hamısı ayrı-ayrı fermerlərin, sahibkarların mülkiyyətindədir. Kanal vasitəsilə onların suya olan tələbatı birbaşa ödəniləcək. Mal-qaranın saxlanması, tənəkçilik, üzümçülük, taxılçılıq, kartofçuluq sahəsində suya tələbat çox olduğundan onların su ilə təmin olması bu sahələrdə məhsuldarlığın artmasına səbəb olacaq. Keyfiyyətli məhsul çoxluğu bazarlarda qiymətlərin əhalinin xeyrinə tənzimlənməsinə öz müsbət təsirini göstərəcək”.

## “Qeyri-neft sektorunun inkişafı baxımından həlledicidir”

İqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, Araz çayının yeni qol-kanalının istifadəyə verilməsi əsas olaraq suvarmaya olan tələbin ödənilməsini nəzərdə tutduğu üçün ölkəmizdə aqrar sektorun inkişafı baxımından çox vacibdir: “Yeni qolun istifadəyə verilməsi, fermer təsərrüfatlarının suvarması zamanı suya olan tələbin ödənilməsi baxımından çox vacibdir. Bu, həmçinin yerli fermer təsərrüfatlarının eləcə də qeyri-neft sektorunun inkişafı baxımından həll edicidir. Çünki, aqrar sektorun inkişafı üçün bu tip kanallara və suvarmanın olmasına ehtiyac var”.



Ekspert bildirib ki, məsələyə regionların inkişafı kontekstindən yanaşdıqda, layihə həm İmişlinin, həm də ümumilikdə regionların inkişafı baxımında da çox vacibdir: “İmişli aqrar sektorun inkişaf etdirilməsi həm rayondaxili, həm də bütövlükdə respublika daxili aqrar məhsullara tələbin ödənilməsində sözügedən rayonun töhfəsini artıracaq. Burada istehsal olunan məhsulların bir qismi paytaxt bazarına, digərləri isə rayon və şəhərlərin bazarına çıxarılacaq ki, bu da daxili istehsalın artması və tələbatın daxili istehsalla ödənilməsi baxımından vacibdir”.

V.Bayramov qeyd edib ki, layihə bir rayonu əhatə etsə də, bütövlükdə regionların inkişafına öz müsbət təsirini göstərəcək ki, bu da daxili tələbin ödənilməsinə töhfələri olacaq.

**Nailə Məhərrəmova**

ARAŞDIRMA

# Yeni müstəqil, Azərbaycan uğrunda!

## *1992-ci ildə 91 nəfər ziyalı "Səs" qəzeti vasitəsi ilə Heydər Əliyevə müraciət ünvanlayıb*

### Ulu Öndər Heydər Əliyevin ziyalılara cavabından 26 il keçir



Hər bir dövlətin həyatında müəyyən rol oynayan, demokratik- hüquqi, sivil və dünyəvi dövlətçiliyin təməl prinsiplərindən, əsas atributlarından sayılan siyasi partiyalar, adətən, zərurətdən, milli tələbatdan yaranır. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi nəcib amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən və milli tələbatdan irəli gəlmişdir.

Bu gün 1991-1993-cü illərin böhranlı, ağrılı-acılı, faciəli günlərini qəlbində vətən, millət sevgisi olan hər bir azərbaycanlı böyük təəssüf, dərin kədər hissi ilə xatırlayır. Hakimiyyəti ələ keçirərək, inanılmaz bir hərisliklə ölkənin sərvətlərini çapıb-talayan, iqtisadi-siyasi və mənəvi böhranın qarşısını almaqda aciz olan məlum qüvvələr xalqın inamından sui-istifadə etməklə, əslində, özlərini uçuruma yuvarladılar. Bir daha təsdiqləndi ki, xalqın etimadına söykənməyən, onun iradəsini, istəyini nəzərə almayan hər hansı siyasi qüvvə Azərbaycan cəmiyyətində uzun müddət duruş gətirə bilməz. Belə acınacaqlı şəraitdə xalqın üzdə olan ziyalıları, sadə və zəhmətkeş insanları öz daxili inamlarına söykənərək, respublikanı xaos və anarxiya mühitindən, parçalanma təhlükəsindən, sosial-iqtisadi tənəzzüldən, bir sözlə, böyük fəlakətlərdən qurtara, onu möhkəm sabitlik, davamlı sosial-iqtisadi tərəqqi və yüksəliş yoluna çıxara biləcək yeganə düzgün ünvanı göstərdilər. Əksəriyyət yaxşı başa düşürdü ki, məhz Ulu Öndər Heydər Əliyev kimi müdrik strateq və siyasət ustadının rəhbərliyi altında formalaşan siyasi partiya xalqın inamını doğrultmaq, respublikanı üzləşdiyi böyük faciələrdən hifz etmək iqtidarında ola bilər.

Ölkənin taleyinə biganə olmayan belə ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq, Ulu Öndər Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən və çətinliklərdən çıxarması üçün ondan kömək istəyirdilər. Ağır vəziyyətdən cana doymuş insanlar konstitusiyaya daxil edilmiş qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi strateqin yenidən böyük siyasətə qayıdışını təkidlə istəyirdilər.

### Ziyalılar baş verənlərə biganə qala bilməzdilər

Nəhayət, 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalılar adından Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlandı. "91-lər"in adı ilə yaranan hərəkatın məramı, məqsədi milyonlarla vətəndaşın Heydər Əliyevə olan ümumxalq etimadını və seçimini siyasi-ictimai cəhətdən təşkil etməkdən; onların müdrik liderlə bağlı siyasi istək və arzularını, azad seçim hüquqlarını bərpa etməkdən; Azərbaycanın siyasi proseslərində Heydər Əliyevlə bağlı ümumxalq maraqlarına və milli mənafeyə dayaqlanan demokratik mühiti və demokratik siyasi ənənələri yaratmaqdan; xalqla Heydər Əliyev birliyinin demokratikliyini və sarsılmazlığını, bu birliyin xalqın milli iradəsinə əsaslandığını bəyan etməkdən ibarət olubdur. Bu hərəkatın məqsəd və məramı Xalq-Heydər birliyinin tarixi, milli, siyasi həqiqət və sosial sifariş olduğunu geniş ictimai fikrə və sosial-siyasi rəyə daxil etməkdən və əsaslandırmaqdan ibarət idi.

Ölkədə yaranmış xaos və özbaşınalıq respublikanı vətəndaş müharibəsinə sürükləyirdi. Belə vəziyyətdən sui-istifadə edən xarici ölkələrin casus şəbəkələri ermənilərlə və daxili pozucu qüvvələrlə əlbir olub, Azərbaycan ərazisində respublikalar yaratmaq planını həyata keçirirdi. Artıq bu respublikaların xəritəsi də hazırlanmışdı. Azərbaycan, nəinki müstəqil dövlət kimi, bir respublika kimi də dünya siyasi xəritəsindən, tarixdən silinmək üzrə idi. Belə bir vaxtda xalqın yeganə ümidi, inamı, xilası və etimadı Heydər Əliyevə yönəlmişdi.

Xalqın Dahi Öndər Heydər Əliyevə siyasi dəstəyi, siyasi etimadı təşkilatlanmalı, Heydər Əliyevi siyasətçi, lider kimi dəstəkləyən siyasi çoxluğun partiyası yaradılmalı, Heydər Əliyev bu partiyanın sədri, lideri olmalı idi. Xalq Ulu Öndər Heydər Əliyev ətrafındakı dönməz və sarsılmaz birliyini siyasi cəhətdən təşkilatlandırmaq, liderin ölkəyə demokratik yolla rəhbər seçilməsini qanuniləşdirmək istəyirdi. Belə də olmalı idi. Ulu Öndər Heydər Əliyevin demokratikliyi, dövlətçilik təcrübəsi qanunların və xalqın rəyindən, millətin tələb və istəyindən, sosial sifarişdən kənar hər hansı mübarizə metodunu qəbul edə bilməzdi. Elə bu proseslər zəminində, xalqın arzu və istəyini əks etdirən müraciət hazırlandı. Ziyalılar müraciətdə Ulu Öndər Heydər Əliyevdən siyasi partiya yaradılmasını və bu partiyaya Sədrlik etməsini xahiş edirdilər, bu xahişin xalqın istəyini, milli iradəsini ifadə etdiyini vurğulayırdılar. Müraciətdə deyilirdi ki, Heydər Əliyev bu ümumxalq istəyinə razılıq verərsə, Azərbaycanın da xilası, bütün sahələrdə inkişafı və dövlətin möhkəmlənməsi reallaşa bilər.

### Heydər Əliyev ziyalıların səsinə səs verdi

Nəhayət, 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalılar adından Ulu Öndərə ünvanlanan müraciətə Heydər Əliyevin verəcəyi cavab xalq arasında ən çox gözlənilən xəbər idi. Heydər Əliyev Azərbaycanın millətinin və dövlətinin xilası, yaşaması, inkişafı və gələcəyi naminə xalqın gözlədiyi bu cavabı verdi və "Səs" qəzetinin 7 noyabr 1992-ci il tarixli sayında Ulu Öndərin ziyalıların müraciətinə cavabı dərc edildi.

Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə verdiyi müsbət cavab isə Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyətin altına girməkdən çəkinmədiyini, cəsarəti və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Cavab məktubunda ziyalıların haqlı narahatlığını və həyəcanını bölüşən ümummilli lider yaranmış vəziyyətdən çıxış yollarını da böyük müdriklik və uzaqgörənliklə göstərirdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

### Çağdaş dövlətçilik tarixində yeni səhifə - zərurətdən yaranan partiya

1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi: Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər yekdilliklə təşkilata Sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən YAP-ın yaranması tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi.

# Yeni müstəqil, Azərbaycan uğrunda!

## 1992-ci ildə 91 nəfər ziyalı "Səs" qəzeti vasitəsi ilə Heydər Əliyevə müraciət ünvanlayıb


ЈЕНИ, МУСТӘГИЛ АЗӘРБАЈЧАН УҒРУНДА

(ҺЕЈДӘР ӘЛИЈЕВИН Азәрбајҹан зијалыларынын мүрачиәтинә ҹавабы)

YAP-ın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da, məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. 1993-cü ilin məlum iyun böhranı zamanı ölkənin taleyinə biganə olmayan insanlar, yaxşı başa düşürdülər ki, Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət, məhz Heydər Əliyevdir. İyun ayının 9-da xalqın və o zaman çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat iqtidarının təkidli istəyi ilə Bakıya qayıdan Ulu Öndər təbiətin ona bəxş etdiyi fövqəladəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək xalqı vətəndaş qarşıdurmasından, dövlət müstəqilliyini itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyin xilaskarı və qurucusu kimi daxil oldu. İyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

### Yeni Azərbaycan Partiyası - 26: xalqa və dövlətə xidmət nümunəsi

İstənilən siyasi partiyanın taleyi, ilk növbədə, onun ideyalarının ictimai dəyəri ilə şərtlənir. Zəngin həyat yolu keçən YAP ideyalarının xalqa daha cəlbedici və yaxın olması ilə ölkənin siyasi taleyində mühüm rol oynamaq qüdrətini son 26 ildə tam təsdiqləyib. YAP Ulu Öndər Heydər Əliyevin daxili və xarici siyasət kursuna alternativ görmədiyi kimi, bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də, haqlı olaraq, Ümummilli Liderin komandasında müəyyənləşdirib. Bu inam, məhz Cənab İlham Əliyevin milli maraqlara əsaslanan fəaliyyəti üzərində köklənib. YAP-a inamla rəhbərlik edən Azərbaycan Prezidenti İlham Əliyev partiyanın İdarə Heyətinin üzvləri ilə hələ 2004-cü il martın 11-də keçirdiyi görüşdə, bütün sahələrdə olduğu kimi, partiyanın gələcək fəaliyyətində də Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna əsaslanacağını bəyan etdi və fəaliyyəti ilə bu vədinə sadiqliyini tam təsdiqlədi. Həmin görüşdə YAP üzvlərinin qarşısına bir sıra yeni vəzifələr qoyan Prezident İlham Əliyev bildirdi ki, hər bir partiya üzvü Ümummilli Lider Heydər Əliyevin həyata keçməyən ali ideallarını, müqəddəs arzularını gerçəkləşdirmək üçün əlindən gələni etməli, dövlətçiliyimizin inkişafına və tərəqqisinə daim xidmət göstərməlidir: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin və qüdrətli dövlətə çevriləcək".

2008-ci ildə YAP-ın namizədi kimi ikinci dəfə prezident seçkilərinə qatılan Prezident İlham Əliyevin xalqın yüksək etimadı ilə yenidən Azərbaycan Prezidenti seçilməsi isə sözügedən təşkilatın cəmiyyətdə ciddi sosial dayaqlara malik olduğunu bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev öz fəaliyyəti ilə Azərbaycanı davamlı yüksəliş və tərəqqiyə aparan siyasəti davam etdirməklə yanaşı, cəmiyyətin hakim partiyaya inam və etimadını daim artırır.

**RƏFİQƏ HÜSEYNOVA**

# Nazirlər Kabinetinin rəsmi internet saytı rus dilində də fəaliyyətə başlayıb

***Son vaxtlar ölkədə tətbiq olunan Elektron hökumət konsepsiyasının tələblərinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının rəsmi internet saytında (www.cabmin.gov.az) yeni struktur dəyişiklikləri aparılıb. Sayt daha da təkmilləşdiriləyərək, yeni funksional bölmələr əlavə edilməklə zənginləşdirilib və onun ən son internet texnologiyaları əsasında mükəmməl dizaynı hazırlanıb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu günlərdə saytda daha bir yenilik olub. Belə ki, saytın rus dilində versiyası da fəaliyyətə başlayıb. Bununla da Nazirlər Kabinetinin saytı dövlət qurumları arasında xarici dillərdə də bölməsi olan qurumların siyahısına əlavə olunub. Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında hökumətlərin rusdilli informasiya resursunun olması xüsusi əhəmiyyət daşıyır. İndiyədək MDB məkanında yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin rus dilində internet saytı mövcud deyildi. Hazırda saytda müntəzəm olaraq Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun iştirakı ilə keçirilən qəbullar və görüşlər, rəsmi tədbirlər, imzalanmış qərarlar, Nazirlər Kabinetinin iclasları haqqında operativ məlumatlar, tədbirlərdən fotoşəkillər və digər informasiyalar yerləşdirilir.

Həmçinin bütün bunlar barədə indi "Twitter" sosial şəbəkəsindən də operativ məlumat əldə etmək mümkündür. Hazırda Nazirlər Kabinetinin "Twitter" səhifəsindən (@AzerbaijanNK?) 3 dildə - Azərbaycan, rus və ingilis dillərində paylaşımlar edilir.




### ABŞ generalı: "Məscidə zərbə endirməkdən razı qaldıq"

Suriyanın Sosa şəhərində məscidə endirilən hava zərbəsi nəticəsində içərsində terrorçuların məhv olunmasından razı qaldıq. Axar.az xəbər verir ki, bunu ABŞ-ın Mərkəzi Qüvvələr komandiri, ordu-generalı Cozef Votel deyib.

"İŞİD-in qərargah kimi istifadə etdiyi məscidə zərbə endirmək qərarı düşünülmüş şəkildə və qanuni əsasla verilib, mülki sakinlərin həlak olması isə bu kimi hallarda labüd və məqbul sayılır", - Votel bildirib.

### MTRŞ-ya ayrılacaq vəsait artırılır

Gələn ilin dövlət büdcəsindən Milli Televiziya və Radio Şurasına (MTRŞ) ayrılacaq vəsait artırılır. SİA xəbər verir ki, 2019-cu ilin büdcəsindən şuraya 9 milyon 280 min 21 manatın ayrılması planlaşdırılır. Bu məbləğ 2018-ci ildəki vəsaitdən 125 min 099 manat çoxdur. Qeyd edək ki, büdcə zərfi gələn ay Milli Məclisin komitə iclaslarında müzakirəyə çıxarılacaq.

# Uğurlu nəticələr Azərbaycanın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir

## *Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi*

***- Azər müəllim, bugünlər ölkəmizdə cari ilin 9 ayının yekunları cəmiyyətimizdə geniş müzakirə olunur. Ölkəmizdə davamlı şəkildə inkişaf etdirilən iqtisadi-sosial siyasət bu 9 ayda hansı uğurları ilə yadda qaldı?***

- Ulu öndər Heydər Əliyevin yaratmış olduğu mükəmməl inkişaf doktrinasının təməlləri üzərində inkişaf etdirilən və yeni iqtisadi qanunauyğunluqlar üzərində diversifikasiya olunan fundamental konsepsiyanın həyata keçirilməsi-ölkəmizin iqtisadi dayanıqlılığını artıran əsas amillərdəndir. Prezident İlham Əliyevin yaratdığı yeni makroiqtisadi platforma və inkişaf formulu Azərbaycanın son illər proqressiv meyillərlə irəliləməsinin əsas konseptlərini təşkil edib. Makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan bütövlükdə Cənubi Qafqazın lideri və dünyanın ən sürətli inkişaf tempinə malik ölkələrindən biridir. Bunu, bir neçə gün öncə açıqlanan Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da təsdiqləyir. Təbii ki, ölkəmizdə istər neft, istərsə də qeyri-neft sektorunun əsaslı inkişafı davamlı şəkildə aparılan siyasətin nəticəsində əldə edilib. Qeyri-neft sektorunun aparıcı sahələri bu gün yeni innovasiyalara əsaslanan siyasət nəticəsində inkişaf etdirilir.

Möhtərəm Prezidentimiz də Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirdi ki, bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir və biz bu islahatların nəticələrini görürük. Əldə edilən nəticələr özü bunu deməyə əsas verir. Azərbaycan artıq dünyada ixracatçı ölkə kimi qəbul olunur. Fərqli sahələr üzrə ixrac ildən-ilə artır. Bu ilin 9 ayında xarici ticarətimizin müsbət saldosu 6,5 milyard dollar təşkil edib və ixracımız idxaldan daha yüksək templərlə artır. Bu olduqca mühüm bir rəqəmdir və hazırki beynəlxalq iqtisadi münasibətlər zəminində buna nail olmaq heç də asan deyil. Eləcə də, kənd təsərrüfatında mühüm inkişaf nəzərə çarpır və bu sahədə də 4,3 faiz artım var. Eyni zamanda dövlətin özəl sektorun inkişafına göstərdiyi diqqəti xüsusi qeyd etmək lazımdır. Mötərəm Prezidentimiz bildirdi ki, bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılıb və bu proses davam etdirilir. Bu diqqət və qayğı nəticəsində yerlərdə kənd təsərrüfatının inkişafına nail olunub. Qəbul olunmuş müvafiq Dövlət proqramlarının uğurlu icrası isə bu inkişafı daha da dinamik edir. Bütövlükdə, ötən dövrün yekunları, uğurlu nəticələr Azərbaycanın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir.



***- Ötən 9 ayda ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi istiqamətində də mühüm addımlar atılıb. Bununla bağlı fikirlərinizi bilmək istərdik...***

- Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə həm regionun sabitləşdirici amili, həm də multikultural dəyərləri yaşadan və inkişaf etdirən ölkə olaraq qəbul edilir. Ölkə Prezidentinin apardığı uğurlu xarici siyasət kursu bütün beynəlxalq təşkilatlarla əlaqələrin daha da genişlənməsinə yol açıb. Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkəmizin bu il beynəlxalq imicinin artması ilə bağlı mühüm fikirlər səsləndirildi. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, Azərbaycanın xarici siyasətində həm müsləman ökələri, həm də Qərb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi prioritet xarakter daşıyır. Eləcə də, qonşu dövlətlərə münasibətlərimizin inkişafı məsələsi hər zaman öz aktuallığını qorumaqdadır. Bu mənada, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi xüsusi qeyd olunmalıdır. Ölkə başçısının vurğuladığı kimi, bu olduqca tarixi bir sənəddir və bu sənəddə ölkəmizin milli maraqları qorunub. Qəbul edilən Konvensiya Xəzəryanı ölkələrin qarşılıqlı əlaqələrinin inkişafında yeni mərhələ sayıla bilər. Bundan başqa, ötən 9 ayda İslam İslam Əməkdaşlıq Təşkilatındakı fəaliyyətmiz də xüsusi qeyd edilməlidir. Çünki Azərbaycan bu təşkilatda təmsil olunan bir çox ölkələr ilə mühüm tərəfdaşlıq əlaqələrinə malikik.

Dövlət başçısının bildirdiyi kimi, Azərbaycan İslam həmrəyliyinə də olduqca mühüm töhfələr verir. Bu il Azərbaycanın ikinci şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı adına layiq görülməsi ölkəmizin bu təşkilatdakı nüfuzunun göstəricisidir. Bu il ölkəmizdə bir sıra mühüm beynəlxalq tədbirlər keçirilib və qarşılıqlı münasibətlərin daha yüksək formada inkişaf etməsində bu amilin də rolu xüsusi dəyərləndirilməlidir.

***- Azərbaycan son dövrlərdə aparıcı beynəlxalq təşkilatlardakı mövqelərini möhkəmləndirir. Sizcə, bu amil Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə hansı dərəcədə təsir göstərir?***

- Bu, olduqca mühüm bir amildir. Bildiyiniz kimi, indiyə qədər Azərbaycan BMT Təhlükəsizlik Şurasında təmsil olunub və orada da uğurlu sədrlik dövrü yaşayıb. Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilib və ölkəmiz gələn ildən başlayaraq Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bu, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun ildən-ilə artmasını təsdiqləyən mühüm faktlardır. Ən əsası ölkə Prezidenti İlham Əliyevin xarici səfərləri, keçirilən görüşlər, eləcə də bir sıra dövlət və hökumət başçılarının Azərbaycana səfərləri ölkəmizin beynəlxalq münasibətlər sistemində mühüm yer tutduğunu göstərir. Beynəlxalq təşkilatların, aparıcı dövlətlərin Azərbaycanla bağlı müsbət mövqeyi, ölkəmizin regionda oynadığı rolu yüksək dəyərləndirməsi mühüm faktorlardandır.

Bu il ölkəmiz Avropa İttifaqı ilə əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində olduqca ciddi bir addım olan "Tərəfdaşlıq prioritetləri" sənədinə imza atıb.Bu sənəd bir çox məsələrə görə önəm daşıyır və ən əsası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı burada yer alan məsələlər ölkəmizin maraqlarına cavab verir. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və bu da münaqişənin ədalətli həllində, sülh danışıqlarında olduqca mühüm bir nailiyyət sayılmalıdır. Aİ ilə ölkəmiz arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" adlı sənəd Azərbaycanın ərazi bütövlüyünün Avropa İttifaqı tərəfindən dəstəkləndiyini bir daha təsdiqləyir. Bununla yanaşı bu il NATO-nun Zirvə görüşünün yekun sənədində də Azərbaycanın ərazi bütövlüyü bir daha quruma daxil olan dövlətlər tərəfindən dəstəkləndi və bu məsələ Zirvə görüşünün yekun bəyyənaməsində öz əksini tapdı. Uğurlu xarici siyasət kursu nəticəsində lədə olunan bu kimi nailiyytlər ölkəmizə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində hüquqi mənada olduqca mühüm üstünlüklər qazandırır.

***- Bu il həm də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam oldu. Ötən 15 ilin ölkəmizin inkişaf tarixindəki yerini necə dəyərləndirirsiniz?***

- Müasir Azərbaycanımızın möhkəm dayaqlar üzərində qurulan və inkişafı hədəfləyən irəliləyişi ölkəmizin özünəməxsus milli inkişaf modelini yaradıb. 2003-cü ilin 15 oktyabr seçkilərində xalqın böyük inam və etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev ötən 15 ildə xalqımızın göstərdiyi etimadı tam doğruldaraq ölkəmizi davamlı yüksəliş yoluna çıxarıb. Ulu öndər Heydər Əliyev siyasi məktəbini keçmiş, yüksək, müasir intellekti və qabiliyyəti ilə Azərbaycan dövlətini uğurdan uğura daşıyan möhtərəm Prezidentimiz İlham Əliyevin elmi təmələ əsaslanan iqtisadi siyasəti respublikanın inkişaf prosesində dinamizmi və məqsədyönümlülüyü təmin etdi, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin yerinə yetirilməsinə real imkanlar açdı, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına möhkəm və etibarlı zəmin formalaşdırdı.

Məhz, möhtərəm Prezidentimiz İlham Əliyevin səyi və qətiyyəti nəticəsində milli iqtisadiyyatımızın liberallaşdırılması, ölkəmizin beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi çəkisinin artması, sosial, iqtisadi və siyasi sabitliyin təmin edilməsi, vətəndaş-dövlət birliyinə nail olunması və digər amillər müstəqil Azərbaycanın yüksələn xətlə inkişafına səbəb oldu. Bazar iqtisadiyyatı münasibətlərinə söykənən liberal iqtisadi sistemin qurulmasına, Azərbaycanın zəngin təbii sərvətlərindən səmərəli istifadə edilməsinin, respublikanın investisiya cəlbediciliyinin yüksəldilməsinin və digər konseptual əhəmiyyətli tədbirlərin nəticəsi olaraq son 15 ildə milli iqtisadiyyatımız yeni keyfiyyət parametrləri ilə möhkəm təməl üzərində sürətlə inkişaf edir. Qəbul olunmuş müvafiq Dövlət proqramları ölkəmizin uğurlu inkişafı üçün ən vacib düstura çevrildi. Bu gün Azərbaycanda təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşıb. Ölkənin makroiqtisadi göstəriciləri hər il artımla müşahidə olunur. Bir daha qeyd etmək gərəkir ki, məhz, Prezident İlham Əliyevin yürütdüyü müasir dünyanın tələblərinə uyğun, yüsək təminatlı və ən əsası vətəndaşlarımızın sosial rifahını özündə əks etdirən siyasi kurs yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan dövlətinin bütün sahələrdə yüksək göstəricilərə nail masında müstəsna rol oynayıb. Milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən məqsədlərə çatılması, sosial-siyasi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, həmçinin hüquqi dövlət quruculuğu yolunda atılan addımlar Azərbaycanın hər sahədə dinamik inkişafını təmin edən faktorlardır.

### İntiqam Babayev: "Dövlət gənclər siyasəti çox uğurlu nəticələr verməkdədir

"Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti çox uğurlu nəticələr verməkdədir". Bu fikri gənclər və idman nazirinin müavini İntiqam Babayev deyib. İ.Babayev bildirib ki, gənclərin hərtərəfli inkişafı ilə bağlı Azərbaycan ciddi nailiyyətlər əldə edib. Onun sözlərinə görə, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində gənclik mövzusu yenə də əsas prioritet istiqamətlərdən biri hesab olunur.

"Gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil əldə etməsi, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilərək bacarıqlarının stimullaşdırılması üçün hərtərəfli şərait yaradılıb. Bu gün biz müstəqilliyimizin tarixi qədər yaşı olan yeni bir nəslin formalaşmasının şahidiyik. Azərbaycan gəncliyi ölkə daxilində bütün sahələrdə öz dəsti-xəttini, potensialını, bilik və bacarığını nümayiş etdirir. Eyni zamanda, dünya miqyasında müxtəlif mötəbər kürsülərdə Azərbaycanı layiqincə təmsil edir, Azərbaycan adının qürurla çəkilməsi üçün səylərini əsirgəmirlər", - deyə nazir müavini vurğulayıb.

### "Sofiya": "Azərbaycan məni valeh etdi"



Dünən dünyanın "Sofiya" adlı məşhur robotu "ASAN xidmət" mərkəzində könüllü kimi fəaliyyət göstərib. SİA-nın verdiyi məlumata görə, robot "ASAN xidmət"ə müraciət edən vətəndaşlardan rəy sorğularının alınmasında iştirak edib. O, "ASAN xidmət" modelinin rahat, müasir və vətəndaşyönümlü olduğunu bildirib. "Azərbaycan məni valeh etdi. Azərbaycan gənc və müstəqil ölkə olmasına baxmayaraq, dünyaca məşhur layihələr həyata keçirir. "ASAN xidmət" bunlardan biridir. "ASAN xidmət"in açılışında iştirak etdiyimə və Prezident İlham Əliyevlə görüşdüyümə, həmsöhbət olduğuma görə məmnunam. "ASAN xidmət" çox unikal bir məkandır, rahat, müasir və insanyönümlüdür" -, deyə robot "Sofiya" jurnalistlərə bildirib.

# Azərbaycan diaspor təşkilatları dünyanın ən güclü diasporlarından birinə çevrilir

***Müasir dünyada gedən sürətli proseslər, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması diaspor təşkilatlarının qarşısına yeni vəzifələr qoyub. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uğurlu siyasət nəticəsində Azərbaycan diasporu daha da formalaşıb, təşkilatlanıb və mütəşəkkil qüvvəyə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz əhalinin sosial rifahının yüksəldilməsi, insan hüquq və azadlıqlarının qorunması, milli təhlükəsizlik və sabitliyin təmin olunması, dünya birliyinə inteqrasiya sahəsində nailiyyətlərə imza atıb. Bu uğurlar azərbaycanlılar arasında həmrəyliyin daha da güclənməsinə, dövlətinə inamın artmasına, eləcə də, diaspor təşkilatlarının fəaliyyət göstərdiyi ölkələrdə nüfuzunun yüksəlməsinə səbəb olub.***

15 il ərzində Azərbaycan diasporu keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyub. Belə ki, Azərbaycan diasporunun qarşısında duran vəzifələr düzgün müəyyənləşdirilməklə xaricdə fəaliyyət göstərən təşkilatlar milli məqsədlər naminə səfərbər edilib. Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində məqsədyönlü və sistemli iş aparılır. Azərbaycan diaspor təşkilatları tərəfindən Avropa, ABŞ, Kanada və digər ölkələrdə etiraz aksiyaları, yürüşlər, fləşmoblar təşkil olunub, fotosərgi və filmlər təqdim olunub. Bütün bu görülən işlərlə yanaşı, ayrı-ayrı ölkələrin ictimai-siyasi xadimlərinin ölkəmizə səfərləri təşkil olunub və xarici ölkələrdə Azərbaycanın mövqeyini dəstəkləyən nüfuzlu şəxslərlə əlaqələrin qurulmasına xüsusi diqqət yetirilib. Azərbaycan diaspor təşkilatları yaşadıqları ölkələrin rəhbərliklərinə, beynəlxalq təşkilatlara Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən dinc sakinlərin öldürülməsinə etiraz olaraq məktublar ünvanlayıb, bəyanatlar yayıb və xarici kütləvi informasiya vasitələrində məqalələrlə çıxış ediblər.

**ERMƏNİ DİASPORUNUN MƏKRLİ FƏALİYYƏTİNİN QARŞISINI ALMAQ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR NƏTİCƏSİNİ VERİR**

Artıq Azərbaycan ermənilərı soyqırımı törədən bir xalq olduğunu dünyaya göstərməyə nail olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illər ərzində milli həqiqətlərin, ilk növbədə, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü işlər ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından, böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə aparılan "Xocalıya ədalət" kampaniyası bu sahədə görülən işləri daha da sürətləndirib, səmərəsini artırıb.

ABŞ-da yaşayan azərbaycanlılar, beş ildən artıqdır ki, Xocalı soyqırımının tanınması, onun qurbanlarının anılması və ABŞ prezidentinin bununla bağlı bəyənat verməsi məqsədilə Ağ Evin rəsmi veb-səhifəsində "Biz xalqıq" bölməsində petisiya yerləşdiriblər. Az vaxtda petisiyaya dünyanın müxtəlif ölkələrindən 100 mindən çox insan imza atdı. İndiyədək ABŞ-ın 20-dən çox ştatı Xocalı ilə bağlı sənəd qəbul edib. Xocalı soyqırımını tanıyan ölkələrin sayı hər il artır. Bu kampaniya nəticəsində, qısa vaxtda, beynəlxalq ictimaiyyətdə Xocalı soyqırımı haqqında təsəvvür formalaşdırmaq mümkün oldu.



**DÜNYA AZƏRBAYCANLILARININ KOORDİNASİYA MƏRKƏZLƏRİNİN YARADILMASI DAVAM EDİR**

Bu gün dünya azərbaycanlılarının koordinasiya mərkəzlərinin yaradılması davam edir və Azərbaycan diasporu, nəinki erməni lobbisinə layiqli cavab verir, bir çox yerlərdə onları üstələyir. ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, Polşa, Birləşmiş Ərəb Əmirliyi, İsveçrə, Qazaxıstan, İtaliya kimi onlarla dövlətlərdə fəaliyyət göstərən Azərbaycan diasporu və icmalarının fəaliyyəti güclənir və gənclərin diaspor quruculuğu işinə cəlb olunması, erməni diasporunun ölkəmizə qarşı antitəbliğat kampaniyalarının qarşısının effektiv şəkildə alınması, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması və digər mühüm məsələlər öz həllini tapır. Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, İsveçrə Azərbaycan Türkləri Kültür Dərnəyi, Azərbaycan-İsveçrə Əməkdaşlıq Cəmiyyəti, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Amerika-Azərbaycan Ticarət Palatası, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, onlarla belə qurum və təşkilatlar Azərbaycanın maraqlarına xidmət edir. Bu gün də belə təşkilatların sayı artmaqdadır. Bildiyimiz kimi, bu yaxınlarda Azərbaycan adətlərini aşılamaq, dilimizi yaşatmaq, mədəniyyətimizi və tariximizi öyrətmək məqsədilə Stokholmda Azərbaycan tədris kursları açıldı. Layihənin məqsədi İsveçə miqrasiya etmiş orta yaşlı və daha çox yaşı olan soydaşlarımızın adaptasiya, bu ölkədə doğulmuş uşaqların isə assimilyasiya probleminin həllinə dəstək göstərmək, uşaqların inkişafını təmin etmək, onlara Azərbaycan adətlərini aşılamaq, dilimizi yaşatmaq, mədəniyyətimizi və tariximizi öyrətmək, eyni zamanda, gənc soydaşlarımız arasında istedadlı uşaqları aşkar edərək, onların inkişafına kömək etməkdir. Bu kurslarda uşaqlar üçün kompüter, rəsm, musiqi, rəqs, yoqa, şahmat, karate kimi idman növlərinin öyrədilməsi də nəzərdə tutulub. ABŞ-da isə daha bir diaspor təşkilatı - "Azərbaycan Minnesota Cəmiyyəti" yaradıldı.

Bu günlərdə isə İveçrədə Azərbaycanlıların Koordinasiya Şurasının yaradılması və "Qarabağ" Azərbaycan Məktəbinin fəaliyyətə başlaması görülən işlərin məntiqi davamıdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə layihəsi olan "Qarabağ" Məktəbi İsveçrə dövlət təhsil sisteminə inteqrasiya olunub, Məktəbdə Azərbaycan dili, tarixi, milli rəqs və piano dərsləri peşəkar müəllimlər tərəfindən tədris olunacaq. Tədris ocağında isveçrəlilər və digər əcnəbilər də təhsil ala biləcəklər.

Bu gün dünya dövlətlərində yaradılan diaspor təşkilatları, mərkəzləri dünya ölkələrində yaşayan 50 milyonluq soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmlənməsində böyük rol oynayır. Görülən işlərin nəticəsi olaraq, yaxın gələcəkdə Azərbaycan diaspor təşkilatları dünyanın ən güclü diasporlarından birinə çevriləcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın üstünlüyü yeni dövrün hesabatında öz əksini tapır

*Qlobal Rəqabətlilik Hesabatında ölkəmizin qərarlaşdığı yer rəqabət imkanlarının artdığını təsdiq edir*

***Dünya İqtisadi Forumunun tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim etdiyi Qlobal Rəqabətlilik Hesabatına yeni indikatorlar daxil edilib və 74 faizi, yəni 84 indiqatoru çıxarılaraq, 68 yeni indikator daxil edilən hazırkı hesabat əvvəlki hesabatdan əhəmiyyətli dərəcədə fərqlənir ki, 98 indikatordan ibarət bu hesabatın 70 faizi tamamilə yenidir. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil "4.0" kimi ictimaiyyətə təqdim edib və bu da, öz növbəsində, ondan xəbər verir ki, "Qlobal Rəqabətlilik Hesabatı-2018/2019" ilk hesabat olmaqla, yeni dövrün hesabatıdır.***

Yeni metodologiya əsasında hazırlanmış Qlobal Rəqabətlilik Hesabatında ilk dəfə qiymətləndirilən Azərbaycanın qərarlaşdığı yer rəqabət imkanlarının artdığından xəbər verir. Bu ilk hesabatda Türkiyə, Serbiya, Gürcüstan, Cənubi Afrika Respublikası və Xorvatiya ilə birlikdə ölkəmizin 7-ci onluğa daxil olması, daha dəqiq desək, 140 ölkə arasında 69-cu yerdə qərarlaşması çox yaxşı göstəricidir. Sevindirici haldır ki, yeni hesabatda infrastruktur, təhsil və bacarıqlar, eyni zamanda, biznesin dinamikliyi kimi üç indikator üzrə Azərbaycanın mövqelərini əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı da öz əksini tapır. Bu isə, o deməkdir ki, ölkəmiz özünün inkişaf dinamikasını qoruyub-saxlayır və daha yüksək götəricilərə ümid etməyə dəyər.

## Sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə olan Azərbaycanda aparılan məqsədyönlü siyasət diqqət mərkəzindədir

Yeni dövrün hesabatında, yəni "Qlobal Rəqabətlilik Hesabatı-2018/2019"-da Azərbaycanın ən yüksək yerdə qərarlaşdığı indikatorlar da var və sözügedən hesabatda ölkəmiz dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanır və bu, heç də təsadüfi deyil. Ona görə təsadüfi deyil ki, məhz sosial bərabərliyin təmin edilməsi istiqamətində ölkəmizdə aparılan məqsədyönlü siyasət heç də diqqətdən yayına bilməz. Görünür, ölkə başçısının rəhbərliyi ilə sosial bərabərliyin təmin edilməsində, özü də ən yüksək səviyyədə təmin edilməsində görülən işlər, aparılan siyasət diqqət mərkəzindədir və bu da, öz növbəsində, sözsüz ki, dəyərləndirilir.

Yeni nəsil metodologiya əsasında hazırlanmış hesabatda ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə də Azərbaycan lider mövqelərini qoruyub. İnklüziv inkişaf iqtisadi inkişaf dövründə iqtisadi proseslərin iştirakçılarına cəmiyyətin hər bir sahəsi üçün faydaları olan bərabər imkanlar təmin edən konsepsiyadır və bu konsepsiya iqtisadi inkişafın ənənəvi modellərini genişləndirir, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir. Deməli, ölkəmizin iqtisadiyyatın makroiqtisadi və mikroiqtisadi determinantları və iqtisadi inkişaf arasında birbaşa əlaqələri nəzərə alan inklüziv inkişafı da diqqəti cəlb edib və yüksək qiymətləndirilib.

## Ölkəmizdə biznes mühitinə yaradılan münbit şərait

**Azərbaycanın biznesin dinamikliyi reytinqi üzrə ön pillədə qərarlaşmasını şərtləndirir**

Biznesin dinamikliyi reytinqi üzrə dünyanın 140 ölkəsi arasında Azərbaycanın 31-ci yerdə qərarlaşması isə heç də təsadüfi deyil və bu göstərici son illər Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatların məntiqi nəticəsidir. Əbəs yerə deyil ki, həmin indikatora əsasən, Azərbaycanın mövqeyi biznesə başlamaq üçün tələb olunan günlərin sayı alt-indikatoru üzrə 17-ci, müflisləşmə normativ-hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci olub.




Qlobal trendlərin nəzərə alındığı, yeni dövrün ilk Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan bir neçə indikator üzrə yüksək nəticələrə, haqlı olaraq, layiq görülüb. Amma gələcəkdə bu nəticələrin daha yüksək nəticələrlə əvəz olunacağına zərrə qədər şübhə ola bilməz. Çünki bu nəticələr Azərbaycanın gələcəkdə digər indikatorlar üzrə də daha yaxşı nəticələr əldə edəcəyinə yeni imkanlar və əsaslı zəmin yaradır.

YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın ən yüksək yerdə qərarlaşdığı indikatorlar barədə fikirlərini bizimlə bölüşüb.

"Ölkəmiz aparılan düzgün və məqsədyönlü siyasətin nəticəsi olaraq, iqtisadi göstəricilərinə görə dünyada aparıcı yerlərdən birini tutur. Son 15 ildə bütün sahələrdə, xüsusən də, iqtisadiyyatda böyük nailiyyətlər əldə olunub" deyə millət vəkili Məlahət İbrahimqızı bildirib. Onun sözlərinə görə, bu yaxınlarda keçirilən Nazirlər Kabinetinin iclasında da Cənab Prezidentimiz qeyd etdi ki, qəbul edilən regionların sosial iqtisadi inkişafına dair dövlət proqramları, eləcə də. digər iqtisadi dövlət proqramlarının hamısı yüksək səviyyədə həyata keçirilibdir və indi yeni mərhələdə, yeni proqramlar qəbul olunacaq: "Azərbaycanda elə bir sahə yoxdur ki, orada ən yüksək nailiyyətlər əldə olunmasın. İşsizliyin ən aşağı həddə düşməsi misal gətirilə bilər və qeyd etmək lazımdır ki, dünya ölkələrində işsizliyin ən aşağı səviyyəsi nə qədərdirsə, Azərbaycanda da o səviyyədədir. Yoxsulluq göstəricisi hazırda 4 faisdən də aşağıdır. Ümumiyyətlə, yoxsulluq və işsizlik son 9 ayda əhəmiyyətli dərəcədə azalıb. Yeni demək istəyirəm ki, Azərbaycanda işsizliyin aşağı olması, iqtisadi sahədə əhəmiyyətli dərəcədə uğurlar, əhalinin sosial-rifah halının yaxşılaşması dünyanın inkişaf etmiş ölkələri ilə bərabər sırada olmasını şərtləndirən amillərsəndir. Bu uğurlar, nailiyyətlər ölkə Prezidenti Cənab İlham Əliyevin apardığı müdrik siyasətinin nəticəsidir. Dünya İqtisadi Formuda bu nəticələri əsas götürərək Azərbaycanı açıqladığı hesabatında öndə olan dövlətlərdən biri kimi qeyd edib".

***İnam HACIYEV***

# "Bəni öldürsələr də bən yaşarım, tərk edib xəlqi xaliqə qoşarım"



***Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.***

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: " Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi".

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edərək şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu.

Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi.

Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur.

Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur. Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub və yazı ədası forma yeniliyi baxımından, Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə "haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıdır. Ötən əsrin 20-30-cu illərində Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922) və "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə və tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu.

Ümummilli Lider Heydər Əliyevin "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yəni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır. Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid "Şeyx Sənan" faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır. Əsərdə qəhrəmanı Sənanın dilindən deyilmiş aşağıdakı misralarda sanki dramaturqun həyatı nəzmə çəkilmişdir:

Bəni öldürsələr də bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.

***Zümrüd BAYRAMOVA***

## Baş Prokurorluq bəzi KİV-lərdə yayımlanan və həqiqəti əks etdirməyən informasiya ilə bağlı məlumat yayıb



Azərbaycan Respublikasının Baş Prokurorluğu ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı bəzi KİV-lərdə yayılan və həqiqəti əks etdirməyən informasiyalarla bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında deyilir: "Bəzi kütləvi informasiya vasitələrində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi barədə informasiyalar yayılıb. Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunur.

Belə ki, rüşvətalma, hədə-qorxu ilə tələbetmə və sair faktlarla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaqı tamamlanmış cinayət işi üzrə məhkəmə tərəfindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş Vüsal Ələkbərov hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müvafiq cəzaçəkmə müəssisəsində azadlıqdan məhrumetmə cəzasını çəkir. Kütləvi informasiya vasitələrinə bir daha xəbərdarlıq edilməklə, bu kimi halların təkrarlanmaması və həqiqətə uyğun olmayan məlumatların gələcəkdə yayılmaması məqsədilə məlumatları dərc etməzdən əvvəl informasiyanın düzgünlüyünün hüquq-mühafizə orqanlarının, o cümlədən Baş Prokurorluğun mətbuat xidmətləri ilə dəqiqləşdirmələri xahiş olunur".

## Ərdoğan: "Camal Kaşıkçı planlaşdırılmış cinayətin qurbanı olub"



Jurnalist Camal Kaşıkçının öldürülməsi faktı sübut olunub və cinayətin əvvəlcədən planlaşdırıldığı müəyyən edilib. SİA Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxışı zamanı bildirib. "Qətlin dəqiqliklə planlaşdırılmasına dair sübutlar mövcuddur. Oktyabrın 1-də (qətldən bir gün öncə) İstanbula Səudiyyə Ərəbistanı vətəndaşlarından ibarət üç qrup gəlib. Onlar baş konsulluqda olub, həmçinin Belqrad meşəsinə və Yalova əyalətinə kəşfiyyata gediblər", - deyə prezident vurğulayıb.

Türkiyə liderinin sözlərinə görə, Ər-Riyaddan gələn mütəxəssislər Camal Kaşıkçının öldürüldüyü gün Baş konsulluqdakı bütün video-müşahidə sistemlərini söndürüb, sərt disklərdəki faylları siliblər. Rəcəb Tayyib Ərdoğan Ər-Riyada Səudiyyə Ərəbistanında həbs olunan şəxslərin İstanbulda məhkəmə qarşısına çıxarılmasını təklif edib: "Mən Səudiyyə Ərəbistanı kralının ədalətli olduğuna şübhə etmirəm. Biz sonadək vəziyyətin gedişini nəzarətdə saxlayacağıq. Hadisə İstanbulda baş verdiyi üçün krala və Səudiyyə Ərəbistanı rəhbərliyinə Ər-Riyad tərəfindən həbs olunan 18 şəxsin burada mühakimə olunmasını təklif edirəm"

# YAP Gəncə şəhər təşkilatında gənclərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatında gənclərlə görüş keçirilib. Gənclərlə görüşdə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev bildirib ki, hər bir kəs gələcək Azərbaycanın qurucuları olan gənclərimizə baxdıqda, qürur duyur və fəxr hissi keçirir. "Onların Ulu Öndər Heydər Əliyev idealları ilə ölkəmizin daha işıqlı gələcəyinə inamlı addımları, dövlətçiliyə, ölkə Prezidenti Cənab İlham Əliyevin siyasətinə sədaqəti buna zəmin yaradıb", deyə qeyd edən N.Həmzəyev keçirilən görüşdə ölkədə gənclərlə aparılan işlərdən ətraflı bəhs edib. Qeyd edib ki, Azərbaycan gəncliyinin önündə böyük qapılar və yollar açılıb: "Gənclərin indi əsas vəzifəsi bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişaflarını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmaqdır".




N.Həmzəyev, həmçinin, bildirib ki, hər zaman gənclərin yanında olan, onlara kömək və dəstəyini əsirgəməyən YAP Gəncə şəhər təşkilatında gənclərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, dünyagörüşünün zənginləşməsi, intellektlərinin formalaşması, asudə vaxtlarının səmərəli təşkil edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir: "Dəyirmi masalar, seminarlar, diskussiya, debat və treninqlər, Təlim və Resurs Mərkəzinin dil kursları, "Cine Club"da nümayiş olunan filmlər gənclərin inkişafında, gələcək arzularını gerçəkləşdirməkdə və perspektivlərini müəyyənləşdirməkdə əsaslı rol oynayır".

Fəal gənclər - Aruz Kəsəmənli, Orxan Mehtizadə, Canbaba Süleymanov, Səməyə Məmmədova, Şəfa Həsənova, Ofeliya Mirzəyeva, Əfsanə Məmmədova, Mədinə Əsgərova çıxış edərək, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirib, dövlət, xalq qarşısında öz vəzifə və məsuliyyətlərini yaxşı dərk etdiklərini bildirməklə yanaşı, ölkəmizin gələcəyini quran insanların içərisində onların da payının olmasını çox istədiklərini də qeyd ediblər. "Yeni Azərbaycan Partiyasına üzv olmaqla, bütövlükdə, Azərbaycan cəmiyyətinin inkişafı prosesində iştiraklarına əhəmiyyətli bir təminat əldə edəcək, ölkəmizin inkişafına öz töhfələrini vermək imkanı qazanacaqlar" deyə çıxış edən gənclər bildiriblər.

***Rövşən RƏSULOV***

# “Paşinyanın istefası manipulyativ mahiyyət daşıyır”

*“Nikol Paşinyanın istefa verib, siyasi gedişlər etmək cəhdləri gülüncdür və klounluqdan başqa bir şey deyil”*

***Məlum olduğu kimi, küçə demokratı kimi tanınan Nikol Paşinyan beş aylıq baş nazir postundan istefa verib. Səbəb də yeni parlament seçkilərinin keçirilməsinə qərar verilməsi ilə əlaqələndirilir. Söhbət etdiyimiz müsahiblərimiz N.Paşinyan, baş nazirlikdən istefa verməklə, manipulyasiya etdiyini, ancaq bu metodun onun siyasi intiharı ilə nəticələnəcəyini bildirdilər.***



## “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: “Paşinyan uğursuzluqlarını parlamentin üzərinə atırdı”

- Bu gün Ermənistanda yaşanan olaylar ölkədə siyasi cəhətdən gərgin vəziyyətin hökm sürməsinə işarədir. Nikol Paşinyan 5 ay əvvəl mitinqlər nəticəsində, Serj Sarkisyanı devirərək, hakimiyyəti ələ aldı. Sadə ermənilərin onu dəstəkləməsinin başlıca səbəbi mitinqlər zamanı səsləndirdiyi fikirlər və verdiyi yalan vədlər idi. Artıq Paşinyan 5 aydan çoxdur Yerevanda hakimiyyətdə olsa da, bu müddətdə vədlərinin, demək olar ki, heç birini yerinə yetirməyib. Ermənistanda iqtisadi inkişaf yoxdur, xarici maliyyə mənbələrindən heç bir investisiya daxil olmur, əksinə, Ermənistandakı investorlar da fəaliyyətlərini dondurmaqla məşğuldurlar. Xarici siyasət kursu isə tamamilə iflasa uğrayıb, nə Qərblə, nə də Rusiya ilə münasibətlər normal deyil. Paşinyanın ölkə ictimaiyyətinə təqdim etdiyi yeganə yaddaqalan olaylar siyasi rəqiblərini kriminalla əlaqələndirərək, müxtəlif yollarla sıradan çıxarmasıdır. Bu cür addımlar da, artıq sadə vətəndaşlar arasında ona qarşı mənfi rəy formalaşdırır. Paşinyan uğursuzluqlarını parlamentin üzərinə atırdı. Mövcud vəziyyət tamamilə əleyhinə dönmədən növbədənkənar seçkilər keçirərək, parlamentdə üstünlük qazanmaq, bununla da, hazırda administrativ vasitələrdən istifadə edərək, küncə sıxışdırdığı siyasi rəqiblərinin ona manea yaratma təhdidini ortadan qaldırmağı hədəfləyir. Baş nazir postundan istefa verməsinə baxmayaraq, parlament ona siyasi hakimiyyəti tamamilə ələ keçirmək yolunda maneçilik yaratmağa cəhd göstərsə, yenidən küçə mitinqlərinə başlamaqla təhdid edir. Şantaj, təhdid, siyasi rəqiblərin sıradan çıxarıldığı, müstəqillik dövründə heç bir demokratik seçki keçirmək təcrübəsinə malik olmayan bir dövlətdə bir ay içərisində demokratik seçkilərin təşkil olunacağı vədi isə boş sözlərdən başqa bir şey deyil. Paşinyanın istefa verməsi onun ambisiyalarını reallaşdırmaq üçün atdığı və manipulyativ mahiyyət daşıyan addımdır.

## Politoloq Ramiz Alıyev: “Paşinyanın istefası siyasi oyundur”

- Paşinyan Düşənbə görüşündə belə bir razılığa gəlinmişdi ki, tərəflər sülhə dair müəyyən addımlar atmalıdırlar. Yəni sülhü pozacaq addımlar atılmamalıdır, münaqişə zonasında atəşkəs rejiminə əməl olunmalıdır. Bütün bu qaydalara riayət edilməlidir ki, sülh prosesi baş tutsun və beynəlxalq hüquq normaları çərçivəsində münaqişə öz həllini tapsın. Ancaq təəssüflər olsun ki, Paşinyan bu günlərdə, elə işğal edilmiş Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağa və qəsb edilən ətraf rayonlara səfər etdi. Bu, bir növ münaqişənin daha da alovlanmasına və tərəflərin daha da qıcıqlandırılmasına gətirib çıxaracaq bir addımdır. Çünki o ərazilər həm dünya dövlətləri, həm də bütün beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazisi kimi tanınır və təsdiq olunmuşdur. Ancaq təəssüflər olsun ki, Paşiyanın separatçı addımına dünyanın hegemon dövlətləri və lideri, eyni zamanda da, BMT və digər beynəlxalq təşkilatlar lazımı formada reaksiya vermirlər. Bu da, hesab edirəm ki, gələcəkdə Azərbaycanla Ermənistan arasında müharibənin baş verməsinin qaçılmaz olduğunu göstərir. Azərbaycan dövləti və ordusu, heç zaman imkan verməz ki, onun ərazilərində Paşinyan və yaxud Paşinyanı əvəz edəcək şəxslər bu cür təmtəraqlı açılışlar və yeni yaşayış kompleksləri inşa etsinlər. Paşinyanın bu günlərdə istefa verməsi və yenidən parlament seçkilərinin keçirilməsi özü bir siyasi oyundur. Paşinyan verdiyi vədlərin heç birini yerinə yetirə bilmədi. O, var gücü ilə öz imkanlarını daxildə gedən proseslərə kökləmişdir. Öz rəqibləri olan və özünə rəqib gördüyü şəxsləri, siyasətçiləri sıradan çıxarmağa çalışdı və buna qismən də olsa, nail oldu. Amma hesab edirəm ki, Paşinyan bu addımı ilə düşündüyü fikirləri, məqsədyönlü işləri yerinə yetirə bilmədi. Nə qədər parlament və prezident seçkiləri keçirilsə də, Paşinyanın bir oyuncaq olduğunu, heç bir müstəqil siyasi fikir olmadığını hər kəs artıq bilir. Başlıcası, Azərbaycanla razılığa gəlmədi və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasını istəmədi. Demək olar ki, onun bir fikri ilə digər fikri üst-üstə düşmür. Paşinyan hər gün bir bəyanatla öz xalqına sanki aktyorluq edir. Çünki o, bir fikrini də bildirdi ki, mən sülhün tərəfdarıyam, bildiyiniz kimi, onun həyat yoldaşı Rusiyada Azərbaycan qadınlarını sülhü dəstəkləməyə çağırmışdır, bir tərəfdən, öz oğlunu Dağlıq Qarabağa hərbi xidmətə göndərir və ordan bəyanatlar verir, eyni zamanda, digər tərəfdən də, Ermənistan parlamentində Azərbaycana qarşı müharibə elan edir. Baxın fikirlər nə qədər birbirinin əksini göstərir. Belə bir adamın bu gün istefa verib, siyasi gedişlər etmək cəhdləri gülüncdür və klounluqdan başqa bir şey deyil.

## Politoloq Elxan Şahinoğlu: “Ermənistanda ay yarım maraqlı proseslər cərəyan edəcək”

- Ermənistan Konstitusiyasına görə, birinci baş nazir istefa verməlidir, daha sonra parlament 14 gün ərzində yeni baş nazir seçməməlidir. Bu zaman seçki qanununa görə, parlament avtomatik yeni parlament seçkisi təyin etməlidir. Parlamentdəki partiyalar Paşinyanın yerinə başqasını baş nazir seçməyə risk etməyəcək. Çünki əks-halda, Paşinyan tərəfdarlarını küçəyə tökəcək. Ermənistan parlamenti və əksər partiyalar Paşinyanın gəlişindən sonra küçədən qorxur. Beləliklə, Paşinyanın beş aylıq hakimiyyətinə ara verildi. Paşinyan küçədən qazandığı reytinqi hələ itirməyib, elə ona görə də, parlament seçkilərini tez keçirməyə çalışır. Korrupsiya ilə mübarizə ona xal qazandırdı. İqtisadi islahat və xarici siyasətdə isə öyünüləsi uğuru yoxdur. Tam əksinə, Rusiya ilə münasibətlərdə inamsızlıq yaranıb, Qərbdən gözlədiyi siyasi və maliyyə dəstəyini isə əldə edə bilmədi. Ermənistanda ay yarım maraqlı proseslər cərəyan edəcək. Yenilər köhnələri, o cümlədən, “Qarabağ klanını” həm hakimiyyətdən, həm də müxalifətdən uzaqlaşdırmağa çalışacaqlar. Paşinyan birincini həll edib, indi ikincini reallaşdırmalıdır. Bunun Dağlıq Qarabağ münaqişəsinin həllinə nə kimi təsiri olacağı sualına isə gələn ilin əvvəlindən aydınlıq gəlməyə başlayacaq.

***GÜLYANƏ***

## İonnisyan: “Paşinyan da sabotaja rəvac verib”



Ermənistan parlamentinə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar, seçki kodeksinə ediləcək əlavə və dəyişiklikləri ehtiva edən layihənin qəbul olunmamasında respublikaçılar, daşnaklar, “Çiçəklənən Ermənistan” partiyası ilə yanaşı, Paşinyan hakimiyyəti də günahlandırılır. SİA xəbər verir ki, hökumətin islahatlar komissiyasının katibi Daniel İonnisyan Facebook səhifəsində bununla bağlı yazıb ki, layihənin iflasa uğramasında yalnız respublikaçılarla daşnaklar və “Çiçəklənən Ermənistan” partiyasını deyil, eyni zamanda, Paşinyan hakimiyyətini də ittiham etmək lazımdır.

“Nikol Paşinyan gözlənilmədən dekabr ayında növbədənkənar seçkilərin keçiriləcəyini bəyan edərək, mümkün sabotaj ehtimalını artırdı. Seçkilərə qədər seçki kodeksinin islahatı Paşinyanın həlledici vədi idi”, yazan İonnisyan hesab edir ki, kodeksi dəyişdirmədən, seçki prosesinə başlamaq səhv addım idi: “Məhz kodeks dəyişdirildikdən sonra sabotaj var verdiyi halda, parlamentə ictimai təzyiq göstərmək imkanı yaranardı. Ümid edirəm ki, hələ situasiyanı dəyişdirərək, kodeksi dəyişdirmək mümkün olacaq”.

***Rövşən RƏSULOV***



# İzlər Əli Kərimliyə doğru aparır

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***“Siyasi mühacir” mövzusu barədə mediamızda çox faktlar yazılıb və bu istiqamətdə bir çox siyasi dəllallar ifşa olunub. Lakin ifşa olunmuşlar arasında daha çox adı hallanan, əlbəttə ki, AXCP sədri Əli Kərimlidir. Maraqlısı da budur ki, Ə.Kərimlinin bu istiqamətdəki fəaliyyətini əks etdirən sənədlər və sübutlar ortada ola-ola, o, hələ də həmin danılmaz sübutları “hakimiyyətin ona qarşı apardığı qara PR kampaniyası” adlandıraraq, “çulunu sudan quru çıxarmağa” cəhd göstərir.***

Ən maraqlısı isə budur ki, AXCP sədrinin saxta sənədləri əsasında “siyasi mühacir” adı alanların əksər çoxluğu ya cinayətkarlar, ya da fərarilərdir. Bəli, məhz vətən qarşısında hərbi xidmətdən boyun qaçıran, xilasını xarici ölkələrdə axtaran fərarilər! Saxta mühacir adını almaq üçün isə, həmin adamlar qarşısında müəyyən şərtlərin qoyulması da sirr deyil. Facebook-da dövlət və hakimiyyət əleyhinə statuslar paylaş, AXCP-“Milli Şura” cütlüyünün mitinq və aksiyalarına qatıl, polisə qarşı müqavimət göstər, eləcə də, 15 sutkalıq həbs qazan... Vəssalam, bununla da sənin Avropa ölkələrinə yolun açılır və olursan “siyasi mühacir”. Söz yox ki, əsas məsələ bütün bunları reallaşdırmaq üçün əlinin cibində olmasıdır. 5-6 min manatından keçmək bütün bunların təməlində dayanır.

Elə də uzağa getməyərək, həm də belə bir faktı xatırlaya bilərik. Hələ şanlı aprel müharibəsi zamanı Ordumuzun qazandığı möhtəşəm qələbənin ardınca, “Milli Şura”nın mitinqində çıxış edən Ə.Kərimli bu qələbəyə hər vəchlə kölgə salmağa çalışdı. Hətta vəziyyət o dərəcəyə çatdı ki, erməni mətbuatı onun fikirlərini tirajlayaraq, dövlətimizin əleyhinə istifadə etdi.

Əslində, bənzər faktlar kifayət qədərdir. Misal üçün, Ə.Kərimli indi də hərbi xidmətdən yayınmaq istəyənlərə “krışalıq” edir, belələrinin ölkədən çıxması üçün ayrıca biznesini qurur. Məsələn, Nərimanov rayonunda hərbi qeydiyyatda olan Əhədov Ərşad Niyazi oglu və onun qardaşı Əhədov Əsgər Niyazi oğlunu götürək. Bu gənclərin ataları Niyazi Əhədov (belə atalar utanmalı və yerə girməlidirlər!-R.) övladlarını hərbi xidmətdən yayındırmaq üçün birbaşa AXCP sədri Ə.Kərimliyə müraciət ediblər (???!!!-R.) və nəticədə, Almaniyada oturum almaq üçün ölkədən çıxarıblar. 23 və 21 yaşlı bu iki gəncin Azərbaycanda hansı siyasi fəaliyyətinin olduğunu kimsə bilmir, hər halda, müxalif cameədə onları fəal mübariz kimi tanıyanın olacağını da güman etmirik. Sadəcə, fakt budur ki, Ə.Kərimli bu kimi çirkin əməlləri ilə açıq-aşkar cinayət törətmiş olur. Maraqlıdır ki, o, hələ nəyə görə azadlıqda gəzib, mühacir biznesini yürüdür?! Çünki o, birbaşa fərariliyə söykənən bir hala rəvac verib!

Yeri gəlmişkən, Kərimlinin bu biznes imperiyası da çökmə ehtimalını daşıyır. Çünki onun sədrlik etdiyi partiyasının möhürü və ştampı olmadığına görə, göndərdiyi adamlara, sadəcə, dəstək məktublarını satır. Artıq Almaniyanın miqrasiya idarələri bu kimi dəllallığın üstünü açıb. Yəni Almaniyanın müxtəlif torpaqlarının miqrasiya idarələri bu dəstək məktublarından çox görüb, ona görə də, hər iki gənci və onları vətənə hərbi xidmətdən yayındıran atalarının Azərbaycana və xalqını təhqir etdikləri vətənə qaytarılması gözlənilir.

Hələ bu, harasıdır? Onlar Azərbaycana göndərildikdən sonra (bəlkə də göndəriliblər-R.) ataları gedib yapışacaq Ə.Kərimlinin xirtdəyindən ki, iki fərari övladı üçün ona xərclədiyi 10-12 min manatını da geri qaytarsın....

Bax, məsələ də budur ki, Ə.Kərimli belə gəncləri zəhərləyərək, adını “vətənə xidmət” kimi tərənnüm edir, halbuki boyunlarına fərarilik (!-R.) yükü qoyur. Sirr deyil ki, AXCP sədri bu yükü oğlu Türkel Kərimlinin də boynuna qoyub. Bu gün fərari oğlundan cuşa gələn Ə.Kərimli, çox yəqin ki, bu əməllərinə görə cavab verməli olacaq. Yəqin ki, mühacir biznesi çökdükdən sonra...

TƏRS BAXIŞ

# Aslan İsmayılov ermənilərə vəkillik etmək istəyir?

*Yaxud "Soros"un nökəri adı ilə məşhur olan siyasi dəllal*

***Adı bu və ya digər qalmaqallardan, qaranlıq əməllərdən əskik olmayan Aslan İsmayılovun keçmişi və bu günü barədə çoxlarında məlumat var. Lakin onun budəfəki əməli bir daha təsdiq edir ki, adını vəkil qoyub, əslində, bu addan sui-istifadə edərək, min bir oyun oynayır.***

Elə də uzağa getməyərək, "SƏS" qəzetini məhkəməyə verən və bu vasitə ilə özünə çörəkpulu qazanacağını uman A.İsmayılovun məhkəmə iclasları zamanı çıxardığı oyunbazlıqları xatırlaya bilərik. Təhqir, təhdid və s. kimi siyasi artistizm bacarıqlarını nümayiş etdirən bu "şəxs", daha doğrusu, ünsür yalnız qəzetə qarşı deyil, şantaj etdiyi digər opponentlərinə qarşı da eyni münasibəti nümayiş etdirir. Necə deyərlər, "Allah kişinin həyasızından qorusun" ifadəsi də, elə bil, A.İsmayılovun boyuna biçilib...

**Aslan İsmayılovdan Azərbaycan xalqına həqarət: "Mən artıq bu xalqdan heç nə gözləmirəm, başına gələn müsibətlərə layiqdir"**

Ümumiyyətlə, hüquq aliliyi, dövlət qanunları kimi amilləri hər zaman ayaq altına atan İsmayılov, bu da azmış kimi, xalqı da təhqir edir. Nədənsə, onu dəstəkləməyən, hətta nifrət edən bu "vəkil" xalqı da təhqir etməkdən çəkinmir. Həyasızlığının son həddi olaraq, Azərbaycan xalqına qarşı "mən artıq bu xalqdan heç nə gözləmirəm, başına gələn müsibətlərə layiqdir" kimi təhqirlərlə çıxış edən A.İsmayılov, bununla, bir daha sübut etdi ki, 1988-ci ildə erməni təxribatı nəticəsində baş vermiş Sumqayıt hadisələri zamanı, yəni SSRİ prokurorluğunun dövlət ittihamçısı olduğu vaxtlar bir neçə azərbaycanlı gənci günahları olmadan güllələnmə cəzasına məhkum olunmalarını hakimlərdən istəməsi onun, həqiqətən də, Azərbaycan xalqına olan nifrətinin bariz nəticəsidir!

**Açıq-aşkar avantürizm və sabotajçılıq mücəssəməsi!**

Bu gün 100 faiz əminliklə deyə bilərik ki, A.İsmayılovu nə Qarabağ, nə şəhidlərimiz və onların ailələri, nə də digər məsələlər maraqlandırır. Əbəs deyil ki, o açıq-açığına etiraf edir ki, qaçqınlara, veteranlara, xəstələrə hüquqi xidmət göstərməyəcək. Çünki onların imkanları istədiyi maddi vəsaiti təmin etmir. Nə qədər "humanist" bir "şəxsdir" A.İsmayılov, deyilmi? Çünki onu maraqlandıran bircə şey var - pul qazanmaq və həmin pulu, hansı yolla olursa-olsun (!!!-R.N.), əldə etmək. Açıq-aşkar avantürizm və sabotajçılıq mücəssəməsi!



Əksinə, A.İsmayılov, Sorosun nökəri olmaqla, yalnız erməni iş adamlarına, lobbi nümayəndələrinə vəkillik edə biləcəyini, məhz bu kimi ifadələri ilə təsdiq edir. Əgər sabah A.İsmayılova ağası Soros əmr edərsə ki, get, filan erməni iş adamını, siyasətçisini, yaxud ictimai xadimini filan məhkəmədə müdafiəsini apar, dərhal ora gedər, hətta qanad çalıb-uçar da. Bax, bunu həmin dırnaqarası vəkildən gözləmək olar. Zatən, onun bu marağı "simasından" yağır...

***Rövşən NURƏDDİNOĞLU***

# AXCP və Müsavat saxta vəsiqələr satır

*Mais Səfərli: "Bu məsələ ilə bağlı hüquq-mühafizə orqanları araşdırma aparmalıdır"*



Dəfələrlə çoxsaylı faktlar əsasında müxalifət düşərgəsində təmsil olunan partiyaların, xüsusilə də, Əli Kərimlinin və Arif Hacılının xaricə getmək istəyənlərə partiya vəsiqələri satmaları barədə məlumatlar yayılıb. Bu məlumatların AXCP və Müsavat yetkililəri tərəfindən təkzib edilməməsi şübhəli məqamlar üzə çıxarıb. Yaxın günlərdə bu şübhələrə yenliləri əvəz olunub. Yayılan informasiyalara görə, AXCP və Müsavat yetkililəri xaricə mühacir kimi getmək istəyənlərə əlavə olaraq 500 vəsiqə satıblar. "Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, zaman-zaman mətbuatda radikal müxalifət partiyalarının ayrı-ayrı şəxslərə xaricə getməsi üçün, yəni "siyasi mühacirlər" üçün arayışlar verib, vəsiqələr satıb: "Əlbəttə ki, bu cür hərəkətlər qanuna ziddir. Hər şeydən əvvəl, bu, siyasi etikaya uyğun olmayan bir məsələdir. Demək olar ki, onların arasında heç vaxt partiya ilə əlaqəsi olmayan insanların xaricə saxta vəsiqələrlə getməsi haqqında məlumatlar var. Belə bir məsəl var, od olmasa, tüstü çıxmaz. Əgər mətbuatda bu məsələlərlə bağlı xəbərlər varsa, deməli, əsaslıdır. Bu məsələ ilə bağlı hüquq-mühafizə orqanları araşdırma aparmalıdır. Çünki bu, qanunvericiliyə ziddir". M.Səfərlinin sözlərinə görə, bəzi şəxslər AXCP və Müsavatdan saxta partiya vəsiqələri əldə edib, getdikləri həmin xarici ölkələrdə bir alətə çevrililər: "Yəni Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq üçün, məhz həmin şəxslərdən bir alət kimi istifadə edirlər. Ona görə də, bu məsələ özünün hüquqi araşdırılmasını tələb edən məsələdir. Bu məsələyə də ciddi yanaşılmalıdır". Partiya sədri onu da bildirdi ki, Avropanın bir sıra şəhərlərində Azərbaycan dövləti və xalqı əleyhinə şər və böhtan səsləndirənlərə bağlı hüquqi araşdırma aparılmalı və məsələyə hüquqi qiymət verilməlidir: "Çünki 100-lərlə belə saxta adamlar saxta mühacirət adı altında xaricə gediblər və orada onlardan Azərbaycan dövlətinə qarşı istifadə olunur". M.Səfəri onu da əlavə etdi ki, dağıdıcı müxalifət partiyaları hər zaman xaricidə olan havadarlarından asılı bir vəziyyətdədirlər: "Müxalifət xaricdəki "ağalarından" aldıqları maliyyə vəsaiti hesabına boş qalan ciblərini doldurmaqla məşğuldurlar. Əlbəttə ki, xarici qüvvələrdə bu maliyyənin qarşılığında da onlardan Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq üçün bir vasitə kimi istifadə edir. Ümumiyyətlə, nə xarici qüvvələrin, nə də müxalifətin nə istəməsindən və nə etməsindən asılı olmayaraq, onların inkişaf etmiş güclü Azərbaycan dövlətinin uğurlarına heç vaxt kölgə sala bilməyəcəklər. Çünki bizim yolumuz dönməz və davamlıdır". M.Səfərlinin sözlərinə görə, dağıdıcı müxalifət partiyaları 1990-cı illərdən necə yaranıbdırsa, indinin özündə də həmin vəziyyətdə qalmaqdadır: "Birmənalı şəkildə, həmin partiyalar öz tərəfdarlarını itirəitirə getməkdədirlər. Adları çəkilən partiyalar 2-3 nəfərlə qalıb. Bütün bunlar da onların zəif şəkildə inkişaf etməsindən xəbər verir. Ümumiyyətlə, müxalifət partiyalarının zəif olmasının əsas səbəbi sözügedən partiyalara rəhbərlik edən liderlərin səhv siyasət aparmaları ilə bağlıdır. Bu baxımdan da, adları çəkilən partiya sədrləri öz səhvlərini, öz içərilərində, partiyalarında və fəaliyyətlərində axtarmalıdırlar".

***GÜLYANƏ***

# "Nar TV" tətbiqini yüklə, smartfonda sevdiyin kanallara bax

***"Nar" Azərbaycan telekommunikasiya bazarında ilk dəfə olaraq, onlayn TV - "Nar TV" tətbiqini təqdim edir. "Nar TV" təbiqi vaxt və məkan sərhədi tanımır. Beləki, bundan sonra abunəçilər istənilən məkanda və vaxtda smartfonlarında sevdikləri TV kanallara və verilişlərə rahat şəkildə baxa biləcəklər. "Nar TV" mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli və regional televiziya kanallarına giriş imkanı verir.***




"Nar TV" tətbiqini indi yükləməklə istifadəçilər 100-ə qədər kanala 1 ay ərzində ödənişsiz baxa bilərlər. Abunəçilərə rahat şəkildə sevdiyi kanalları izləmək imkanı yaradan "Nar TV" mobil tətbiqini "Google Play" - https://bax.nar.az/nartv-g və "App store"-dan - https://bax.nar.az/nartv-i telefonlara və ya tabletlərə yükləməli, "Nar" nömrəsindən istifadə edərək qeydiyyatdan keçilməlidir. "Nar TV"-nin digər üstünlüyü, vaxtınız olmadıqda ötürdüyünüz proqramlara 12 saat ərzində baxmaq mümkünlüyüdür. Aylıq abunə haqqı cəmi 3 AZN-dir. Abunəçilər "Nar TV"-yə "Nar"-ın 4G şəbəkəsindən istifadə etməklə, tam keyfiyyətdə baxa bilərlər.

"Nar TV"-də valideyn nəzarət xidməti də mövcuddur. Bunun üçün xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq olar. Qeyd edək ki, "Nar TV" xidməti "Uninet"-lə əməkdaşlıq çərçivəsində təqdim edilir. "Nar TV"-nin digər üstünlükləri barədə daha ərtaflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Piyadanı vurdu, evində qaçıb gizləndi və tutuldu

Abşeronda yol nəqliyyat hadisəsi törədərək hadisə yerindən qaçan sürücü tutulub. Bu barədə SİA-ya Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib. Məlumata görə, oktyabrın 20-də saat 19:30 radələrində Cumayev Vüqar Nazim oğlunun idarə etdiyi "Mitsubishi Pajero" markalı, 90-EG-191 dövlət qeydiyyat nişanlı avtomobillə Abşeron rayonunun Saray qəsəbəsində hərəkətdə olarkən piyada Həbibov Malik Yusif oğlunu vurub ona müxtəlif dərəcəli bədən xəsarətləri yetirərək hadisə yerindən qaçmasında əsaslı şübhələr olduğundan fakta görə Abşeron rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.1 (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

İş üzrə hadisə yerinə və nəqliyyat vasitəsinə baxış keçirilmiş, müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi və məhkəmə yol-nəqliyyat hadisələri ekspertizaları təyin edilib, şahidlərin ifadəsi alınıb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib. V.Cumayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Corc Sorosa sui-qəsd edildi



Amerikalı milyarder, iş adamı Corc Sorosun Nyu-Yorkun Westchester səmtindəki evinin poçt qutusundan içərisində partlayıcı maddə olan paket tapılıb. Xarici mətbuata istinadən SİA-nın verdiyi məlumata görə, rəngli inqilabların sponsoru kimi tanınan Soros demokratlara verdiyi dəstəyə görə sağ radikal qrupların hədəfinə çevrilib.

Soros evdə olmadığı zaman aşkarlanan partlayıcı maddə əvvəlcə evin xidmətçisi tərəfindən aşkar edilib və o həmin bağlamanı evdən çıxararaq həyətdəki boş əraziyə aparıb, sonra bomba təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirilib.

# Tarixdə və müasir dövrdə Azərbaycan qadınları

***Coğrafi ərazidən, ictimai-siyasi quruluşdan asılı olmayaraq, tarixi inkişafın bütün mərhələlərində qadınlar cəmiyyətdə mühüm yer tutmuşlar. İlk növbədə, bu qadının analıq missiyası, ailənin qurucusu və qoruyucusu, gənc nəslin tərbiyəçisi rolundan irəli gəlirdi. Lakin hələ qədim dövrlərdə bu çərçivədən xeyli kənara çıxaraq qəbiləsinin, ölkəsinin ictimai-siyasi həyatında fəal iştirak edən və tarixdə müstəsna rol oynayan qadınlar olmuşdur. Bu güclü, ağıllı və böyük nüfuza malik qadınların adı bəşəriyyət tarixinə həmişəlik yazılmışdır. Qədim Misirin ilk qadın fironu Hatşepsut, əfsanəvi kraliça Nefertiti, Misirin son kraliçası Kleopatranın adları ən qədim dövrlərdən belə qadının tarixdə olan böyük rolunun göstəricisidir.***

Milli Məclisin deputatı Gülçöhrə Məmmədova yazır: "Din tarixinə adları həkk olunmuş qadınlar çoxdur. Onların içərisində ən möhtəşəm simalar barədə "Hədisi şərifdə" yazılanlar yəqin ki, sizə tanışdır. "Cənnət qadınlarının ən üstünləri Xədicə bint Hüseylid, Fatimə bint Məhəmməd, Məryəm bint İmran, Fironun zövcəsi Asiya bint Məzahirdir". Ümumiyyətlə, islam dinində qadına verilən önəm, Qurani-Kərimdə qadın hüquqlarının qorunmasına yönəlmiş qanunların təsbit olunması dini ideologiyada ən mütərəqqi bir addım olmuşdur.

Orta əsrlərin qadının cəmiyyətdə yeri və hüquqları baxımından ağır tarixi dövr olmasına baxmayaraq, bu əsrlərdə də bir sıra qadınlar adlarını tarixə yazmışlar. Azadlıq, mübarizlik, mərdlik simvoluna çevrilmiş Janna Dark tək Fransanın yox, bütövlükdə, Avropanın orta əsrlər tarixində ən parlaq şəxsiyyətlərindən biri olmuşdur. Son orta əsrlərdə Avropa tarixində kral sülalələrindən olan bir sıra qadınlar siyasətdə aşkar, yaxud gizli iştirakı ilə ölkələrin taleyinə təsir göstərmişlər.

Cəmiyyət inkişaf etdikcə, ictimai-siyasi şüurda daha proqressiv tendensiyalar və baxışlar formalaşır. XIX əsrdə demokratiyanın inkişafı qadınların hüquqları uğrunda mübarizəyə də yol açır. Qadınlara səsvermə hüququnun verilməsi və ümumiyyətlə, cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması üçün dövrün ən mütərəqqi insanları fəaliyyət göstərirlər. Onların içində 8 mart bayramını təsis edilməsinin təşəbbüskarı Klara Setkin və Roza Lüksemburq tarixdə qadın hüquqlarının ən fəal müdafiəçiləri olmuşlar.

XX əsrdə ictimai həyatın bütün sahələrində qadınların rolu artır. Qadın hüquqlarının bərqərar olunması, cəmiyyətdə qadınların yerinin və rolunun demokratik qanunlarla təsbit edilməsi dünya siyasəti səhnəsinə çoxsaylı qadın siyasətçilər gətirir.

Tək Hindistanın yox, dünyanın tarixində rol oynayan İndira Qandinin adı ən nüfuzlu siyasətçilərin sırasında çəkilir. XX əsrin sonunda dünya siyasətinə "Dəmir Ledi" Marqaret Tetçer öz möhürünü vurmuşdur. Türkiyənin ilk qadın baş naziri Tansu Çillər, 35 yaşında Pakistanın baş naziri seçilmiş Bənazir Bhutto müsəlman dünyasının tanınmış liderləri olmuşlar.

Beləliklə, sadaladığımız və sizin hamınıza tanış olan daha onlarla adlar kişi peşəsi sayılan siyasətdə qadınların iştirakının nümunəsidir. İncəsənətdə və elmdə böyük zirvələr fəth etmiş qadınların sayı daha da çoxdur".

G.Məmmədovanın göstərdiyi kimi, Azərbaycan qadınlarını tarixən fərqləndirən bir sıra xüsusiyyətlər olub. Onlar həmişə Vətənə, torpağa və ailəsinə sədaqətli olmuş və zamanın bütün sınaqlarından alnıaçıq, üzüağ çıxmağı bacarmış və çətin məqamlardan çıxış yolunu düzgün seçərək, kişiləri də bu yola istiqamətləndirmişlər.

Azərbabycanın tarixində dərin iz qoymuş və şöhrət qazanmış qadınlar çoxdur. Bunun bariz nümunəsini e.ə. VI əsrdə yaşayan Əhəməni hökmdarı Kirə qalib gəlmiş Tomrisin timsalında, öz ağlı və dərrakəsi ilə İsgəndəri düşünməyə vadar etmiş Bərdə hökmdarı Nüşabənin simasında görürük.

Qədim Azərbaycan tayfalarından olan massagetlərin məşhur qadın hökmdarı, sərkərdə Tomris haqqında əsas məlumat Herodotun "Tarix" əsərində verilir.

Tomris Azərbaycan tarixinə öz ölkəsinin azadlığı uğrunda mübarizə aparan sərkərdə qadın kimi daxil olmuş və məhz qəhrəman döyüşçü qadın kimi dövrün tarixində əks olunmuşdur. Onun obrazının məşhur amazonkalar əfsanəsinin yaranmasında da böyük rolu olmuşdur.

Orta əsrlər tariximizdə Azərbaycan hökmdarlarından Qızıl Arslanın ömürgün yoldaşı Qətibə xanım, Özbək xanın arvadı Mehrican xanım Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şirvanşah Xəlilullahın arvadı Pəri xanım, Şah Abbasın anası Xeyransa bəyim, əfsanəvi Tutti Bikə və başqaları kimi görkəmli siyasi dövlət xadimiərinin adları hörmətlə yad edilir.

Adı Azərbaycan dövlətçilik tarixinə ilk xanım diplomat kimi daxil olan Sara Xatun adını fəxrlə çəkə biləcəyimiz bir qadındır. Bütün Şərqdə dövrünün yeganə istedadlı diplomat qadını kimi tanınan Sara Xatun böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi idi. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası olan Sara Xatunu bir diplomat, həmçinin, dövlət xadimi kimi təkcə Şərqdə deyil, Avropada da tanıyırdılar.

Qarabağın, Şuşanın tarixində iz qoymuş xanımlardan Gövhərağanın və Natəvanın adları xüsusi çəkilməlidir. Pənahəli xan Cavanşirin nəslindən olan Gövhərağa mükəmməl təhsil almış, maarifpərvər və xeyriyyəçi bir xanım idi. O, atasının Şuşada tikdirdiyi məscidi bərpa etmişdir və bu məscid elə onun adı ilə Gövhərağa məscidi adlanır.

Parlaq istedada və qabaqcıl dünyagörüşünə malik Natəvan Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Onun təşkil etdiyi "Məclisi-üns" Qarabağda poeziyanın və musiqinin inkişafına xidmət etmişdir.

G.Məmmədova daha sonra yazır: "Beləliklə, gətirdiyimiz nümunələr çoxsaylı başqa faktlarla yanaşı, Azərbaycan cəmiyyətində tarixən qadının tutduğu mövqeyin göstəricisidir.

Hakimiyyət və nüfuz sahibi olan bu qadınlara olan ehtiramla yanaşı, Azərbaycan xalqında, ənənəvi olaraq, qadın-anaya hörmət və sayğı güclü olmuşdur. Bu, bizim milli mənəviyyatımızın ən səviyyəvi xüsusiyyətlərindən biridir. Bunu biz şifahi xalq ədəbiyyatımızda əks olunmuş qadına münasibətdə görürük.

Bəşəriyyətin qədəm qoyduğu yeni tarixi dövr XIX əsrin sonunda Azərbaycanda da qadın hüquqlarının təmin edilməsi problemini gündəmə gətirdi. Qadınların savadlanması və inkişaf etməsi üçün müəyyən addımların atılması zərurətə çevrildi. 1915-ci ildə Azərbaycanda artıq 11 qız gimnaziyası fəaliyyət göstərirdi.

Azərbaycan demokratik mətbuatı, azad fikirli ziyalı və ədibləri öz əsərlərində qadın azadlığı barədə zamanın tələbi kimi yazırdılar. Azərbaycan xalq Cümhuriyyəti, Şərqdə ilk dəfə olaraq, qadınlara seçki hüququ verdi.

Azərbaycanda Sovet hakimiyyətinin qurulması qadın hərəkatının daha da genişlənməsi üçün imkanlar yaratdı. Azərbaycan qadınlarının kişilərlə bərabərliyi qanunlarda təsdiq edildi. Bu dövrdə qadınlarımız bir çox sahələrdə - kənd təsərrüfatı, təhsil, səhiyyə, elm və incəsənətdə böyük uğurlar qazandılar.

Məhz XX əsr elmimizə akademiklər İzzət Orucova, Validə Tutaycıq, Ümnisə Musabəyova, Zərifə Əliyevanı, ədəbiyyatımıza Mirvarid Dilbazi, Nigar Rəfibəyli, incəsənətimizə Maral Rəhmanzadə, Elmira Şaxtaxtinskaya, musiqi sənətimizə Şövkət Məmmədova, Firəngiz Əhmədova, Şövkət Ələkbərova və bir çox başqalarını bağışladı".

Ulu Öndər Heydər Əliyev Sovet dövründə Azərbaycan qadınlarının qazandıqları uğurlar haqqında demişdir: "Böyük Vətən Müharibəsi dövründə Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva kimi təyyarəçi, Şövkət Səlimova kimi qadın gəmi kapitanı yetişmişdi. Müharibə dövründə qadınlarımız ön cəbhədə mərdliklə döyüşmüş, arxa cəbhədə əmək rəşadəti və fədakarlıq nümayiş etdirmişlər. Bütün bunlar Azərbaycanda qadın hərəkatı tarixinin unudulmaz səhifələridir.

Azərbaycan qadınlarının Sovet hakimiyyəti illərində elm və mədəniyyət sahələrində əldə etdikləri nailiyyətlər onların böyük istedad və əməksevərliyinə dəlalət edən tutarlı sübutdur. Teatr səhnəsinin mahir ustaları Mərziyyə Davudova, Fatma Qədri, Hökümə Qurbanova, Münəvvər Kələntərli, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Nəsibə Zeynalova, Şəfiqə Məmmədova, Amalya Pənahova, Azərbaycan baletinin ulduzları Qəmər Almaszadə, Leyla Vəkilova, Rəfiqə Axundova, sevimli müğənnilərimiz Şövkət Məmmədova, Həqiqət Rzayev, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Zeynəb Xanlarova, görkəinli bəstəkarlarımız Ağabacı Rzayeva, Şəfiqə Axundova, Firəngiz Əlizadə, böyük qadın ressamlarımız Vəcihə Səmədova, Reyhan Topçubaşova, Güllü Mustafayeva, Elmira Şahtaxtinskaya, Maral Rəhmanzadə milli mədəniyyətimizin inkişafına öz layiqli töhfələrini vermişlər. Azərbaycanın qadın şair və yazıçıları - Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Mədinə Gülgün, Hökumə Billuri, Əzizə Cəfərzadə, Xanımana Əlibəyli də Azərbaycan ədəbiyyatının inkişafı tarixində silinməz izlər qoymuşlar". G.Məmmədova yazır: "Azərbaycan qadını XX əsrdən kişilərlə çiyin-çiyinə, bərabərhüquqlu vətəndaş kimi cəmiyyətdə çox fəal olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra isə qadınlarımıza hörmət və diqqət daha da artmışdır.

Bu gün Azərbaycan qadınları müstəqil resrublikamızın ictimai-siyasi həyatının bütün sahələrində əzmlə çalışırlar. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkəmizdə əhalinin 51%-ni qadınlar təşkil edir. Bu gün qadınlarımızın 49,5%-i əmək fəaliyyətilə məşğuldur. Ümumtəhsil məktəblərində müəllimlərin 71%-i, texnikumlarda 73%-i, ali məktəblərdə 47%-i, həkimlərin isə 61%-i qadınlardır.

Dövlət qulluğunda çalışanlar arasında qadınlar 29%, sahibkarlar arasında isə 15%-dir. İdmançılarımızın 20%-ni qadınlar təşkil edir. Bu rəqəmlər çağdaş dövrümüzün qadın siyasətinin göstəriciləridir.

Azərbaycan tarixində qadın probleminin dövlət səviyyəsinə qaldırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə qadın siyasətinin təməl prinsiplərini müəyyən etmiş, onların cəmiyyətdə daha fəal mövqe tutmaları üçün əlindən gələni etmişdir.

1993-cü ildə Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra yaranan sabitlik şəraitində qadın hərəkatı yeni inkişaf mərhələsinə qədəm qoydu.

1995-ci ildə Azərbaycan Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə bütün ayrı-seçkilik formalarının ləğv olunması haqqında" Konvensiyasına qoşuldu".

Ümummilli Lider Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə yaradılmış Qadın Problemləri üzrə Dövlət Komitəsi ölkə qadınlarının ictimai fəallığının yüksəldilməsi, cəmiyyətdə gender balansının təmin edilməsi, respublikada fəaliyyət göstərən qadın təşkilatlarının əlaqələndirilməsi sahəsində etibarlı zəmin yaratdı.

2000-ci il martın 6-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmanda deyilir: "Qadın problemlərinin həlli zərurəti Azərbaycan qadınlarının 1998-ci il sentyabrın 25-də keçirilmiş ilk qurultayında qeyd olundu. Respublikada cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərin gedişində Azərbaycan qadınlarının daim milli dövlətçilik mövqeyindən çıxış etdiklərini nümayiş etdirən qurultay göstərdi ki, cəmiyyətdə qadınların rolunun artırılması yolunda hələ çox iş görülməlidir.

Qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə, onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması təmin edilsin.

2. Dövlət Statistika Komitəsi Qadın Problemləri üzrə Dovlət Komitəsi ilə birlikdə respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumat hazırlasın.

3. Nazirlər Kabinetinə tapşırılsın ki:

- ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etsin;
- qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramı hazırlayıb həyata keçirsin;
- qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər və əlavələr edilməsi məqsədilə mövcud qanunvericiliyi təhlil edib təkliflər versin;
- hər il martın 1-nə qədər bu Fərmanın yerinə yetirilməsinin gedişi haqqında Azərbaycan Respublikasının Prezidentinə məruzə təqdim etsin;
- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
- Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş dövlət siyasəti bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## *300 dollara "Ağıllı" güzgü...*

Tayvanın informasiya texnologiyaları şirkətinin baş direktoru Saymon Şenin həyat yoldaşı ondan bütün vaxtını həsr etdiyi texnoloji layihələrin nə olduğunu soruşub. S.Şen xanımına daim gözəl qalmağa kömək edəcək səs köməkçisi ilə təchiz edilmiş güzgünü layihələşdirdiyini deyib.

AZƏRTAC techcult.ru saytına istinadla xəbər verir ki, "HiMirror Mini Premium" sensor ekrana və yüksək keyfiyyətli kameraya malik planşet kimi işləyir. Qurğu sifətin əksini göstərməklə yanaşı, şəkilə real vaxt rejimində müxtəlif effektlər əlavə edə bilir. Onun "ağıllı" olmasının əsasında dəridə qırışlar, ləkələr, nahamarlıq, dəri məsaməsləri, sifətin xəstə görünüşü, nəmlənmə və piqmentasiya kimi vacib kosmetik qüsurların tanınması üçün yaradılmış "Skin Analysis Engine X" xüsusi xidməti dayanır. Qeydə alınmış qüsur ekranda əks olunur. "Ağıllı" güzgünün 3 əsas vəzifəsi vardır: istifadəçinin sifətindəki kosmetik çatışmazlıqları göstərmək, onların aradan qaldırılması üçün vasitələri təklif etmək və bu qüsurları makiyajın köməyi ilə gizlətmək yollarını təqdim edir. Bu il noyabrın 5-də satışa çıxarılacaq güzgünün qiyməti 300 ABŞ dolları təşkil edir.

## *Tikanlı eleuterokok həyat gücünü artırır*

Tikanlı olduğu üçün onun bitdiyi yerləri yerli əhali "toxunulmaz kol" adlandırır. Bu bitkinin tikanlarından qorunmaq lazımdır, çünki bataqlıq yerlərdə onun batdığı nahiyədə ağrılı irin əmələ gələ bilər. Təsir xüsusiyyətlərinə görə eleuterokok jenşenə çox yaxındır. Buna görə də onu bəzən qərbdə "Sibir jenşeni" adlandırırlar.

AZƏRTAC xəbər verir ki, vaxtilə sovet alimlərinin tayqa ekspedisiya qrupunun əməkdaşları meşədə apardıqları təcrübə zamanı ayıların və maralların tikanlı eleuterokokla qidalandıqlarını və onların orqanizminin şaxtaya kifayət qədər davamlı olduğunu müşahidə ediblər. Bu bitkinin tərkibini araşdıran mütəxəssislər müəyyən ediblər ki, eleuterokokun kök sistemi zəngin kimyəvi tərkibə malikdir. Onun tərkibində elmə məlum olmayan beş qlükozid tapılıb. Həmin maddələr sayəsində eleuterokok dözümlüyü, iş qabiliyyətini və həyat gücünü artırır. Məhz həmin keyfiyyətlərinə görə bitkini idmançılara da təyin edirlər.

Keçən əsrin 60-cı illərində eleuterokok haqqında geniş tədqiqatlar aparılıb. Tibdə onun kök və kökümsovlarından istifadə edilir. Eleuterokok bitkisindən hazırlanan preparatları jenşendən fərqli olaraq ilin hər fəslində qəbul etmək olar. Onu da qeyd etmək lazımdır ki, bitkinin stimuləedici təsir vahidi fəsildən asılı olaraq iyulda maksimum səviyyəyə çatır.


## ELAN

*"GÜLAY" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!*

24.11.2018-ci il saat 10.00-da "Gülay" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:
1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi;
2. Qalıq əmlakın iştirakçılar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi;
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə ediləcək sənədlərlə hər həftənin iş günləri, saat 10:00-dan 13.00-dək Cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir!

Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 31
Əlaqə telefonu: 055 783-97-64

"GÜLAY" Açıq Səhmdar Cəmiyyətinin Ləğvetmə Komissiyasının sədri: H.Rzayev

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Bəşirli Cavid Mehman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Abşeron rayonu, Məmmədəli kənd sakini Rzayev Eyvaz Malik oğlunun adına verilmiş torpaq sahəsinə dair 0003024 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.



# səs

Son səhifə 24 oktyabr


## Ronaldonun 2 milyon avroluq saatı...



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turunda "Mançester Yunayted"lə oyun öncəsi iştirak etdiyi mətbuat konfransında bahalı aksesuarları ilə diqqət çəkib.

Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, o, 424 ağ və qırmızı brilyantla bəzənmiş Jacob& Co Caviar Tourbillon şirkətinə məxsus saat taxaraq konfransa gedib. Bu, aksessuarın ona təxminən 2 milyon avroya başa gəldiyi bildirilib. Bundan əvvəl buna oxşar saatı məşhur Nigeriya repçisi Wizkidin sifariş verdiyi yazılıb. Ancaq Ronaldonun saatının bir qədər fərqli dizaynda və daha bahalı olduğu vurğulanıb.

Britaniya mətbuatı yazıb ki, bu qədər qəşəng saat Ronaldo üçün tipik olmayan aksessuardır. Portuqaliyalı hücumçu 2013-ü ildə Jacob& Co şirkətinin partnyoru olub. Lakin o, indiyə kimi buradan 100 min funt sterlinqdən baha aksessuar taxmayıb. Ronaldonun ictimaiyyət qarşısına bu cür bahalı saatla çıxmasının "Qızıl top"un sahibinin sabiq komandasına qarşı oyununa yüksək diqqətin olması ilə əlaqədar olduğu yazılıb.

## Azərbaycanlı qrossmeyster Hollandiyada keçirilən festivalın lideridir



Hollandiyanın Hoqeven şəhərində keçirilən 22-ci şahmat festivalının dörd turu geridə qalıb. AZƏRTAC xəbər verir ki, turnirdə 12 ölkədən 90 şahmatçı, o cümlədən Azərbaycan qrossmeysterləri Qədir Hüseynov və Eltac Səfərli iştirak edirlər. Dörd turda 4 xal toplayan Qədir Hüseynov turnirdə liderlik edir. Yerli şahmatçılar Erik Van den Dul, Merijn Van Delft, Stefan Keypers, Royland Pryuyssers, Dmitri Kryakvin (Rusiya) və Bassem Amin (Misir) ondan yarım xal, səkkiz şahmatçı, o cümlədən Eltac Səfərli bir xal geri qalırlar. Hollandiyada şahmat festivalı İsveçrə sistemi üzrə keçirilir və 9 turdan ibarətdir.

## AFFA "Qarabağ"a texniki məğlubiyyət verdi




Dünən AFFA İntizam Komitəsinin iclası keçirilib. PFL-in rəsmi saytında yer alan xəbərə görə, iclasda Topaz Premyer Liqasının 8-ci turunun "Qarabağ" - "Səbail" matçında qeydə alınan qayda pozuntusuna hüquqi qiymət verilib. Ağdam təmsilçisinin heyətində protokolda adı qeyd olunmayan futbolçu (Abbas Hüseynov) iştirak etdiyi üçün komandaya 0:3 hesablı texniki məğlubiyyət verilib. Bundan başqa, klub 8000 manat məbləğində cərimə olunub.

## Azərbaycan triatlonçusu dünya kuboku yarışlarında dördüncü olub



Azərbaycan triatlonçusu Rostislav Pevtsov Ekvadorda keçirilən dünya kuboku yarışında dördüncü olub. AZƏRTAC xəbər verir ki, idmançımız 67 triatlonçunun mübarizə apardığı yarışı 52 dəqiqə 24 saniyəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 9 dəqiqə 10 saniyəyə başa vurub. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 27 dəqiqə 7 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını Rostislav 14 dəqiqə 34 saniyə nəticə ilə başa vurub. Dünya kubokunun yarışının qalibi ispaniyalı David Kastro olub.

## Azərbaycanlı fristaylerlər ilk dəfə olaraq Avropa çempionatında iştirak ediblər



Almaniyanın paytaxtı Berlində kişi və qadınlar arasında fristayl futbolu üzrə Avropa çempionatı keçirilib. Yarışda ilk dəfə olaraq azərbaycanlı fristaylerlər - Ruslan Quliyev və Nicat Səfərov də çıxış ediblər. AZƏRTAC xəbər verir ki, Adidas Futbol Mərkəzində keçirilən ilk yarış günündə 21 ölkənin 100-dən çox idmançısı 4 nəfərdən ibarət qruplarda çıxış ediblər. Daha təcrübəli rəqiblər ilə qarşılaşan Ruslan və Nicat bu mərhələdə mübarizəni dayandırıblar.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Erlend Faqerli kişilər arasında, Laura Dekker isə qadınlar arasında fristayl futbolu üzrə Avropa çempionu adını qazanıblar.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**